*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

30 noyabr 2024-cü il | №44 (9102) | www.muallim.edu.az | muallim@media.edu.az

**COP29**
**İQLİM DİPLOMATİYASINDA DÖNÜŞ NÖQTƏSİDİR**

**Prezident İlham Əliyev:**

**“Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.**

**Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.**

**Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!**

**Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.**

**COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək”.**

# Həyata keçirilən layihələr ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında mühüm rol oynayır

## Prezident İlham Əliyev Mərkəzi Nəbatat Bağının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirildi ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilib, mövcud oranjereyalar əsaslı təmir edilib. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müxtəlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib.




Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.

Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat Bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək. Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib. Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib. Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi-tədqiqatların davamlı inkişafına xidmət edir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

# ZƏFƏRİN ELM VƏ TƏHSİL TƏNTƏNƏSİ

## Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin təsisindən 1 il ötür




Bax səh. 3

# QƏRBİ AZƏRBAYCAN

## BİZ QAYIDACAĞIQ

## Prezident İlham Əliyev:

**“Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur”**

Bax səh. 4

COP29

# İQLİM DİPLOMATİYASINDA DÖNÜŞ NÖQTƏSİDİR

TƏHLİL

## COP29-da milyardlarla insan üçün həyati əhəmiyyət kəsb edən qərarlar qəbul edildi

**Əldə olunmuş razılaşmalar və qərarlar onun göstəricisidir ki, COP29-a ev sahibliyi Azərbaycana bütün dünyada təşəbbüskar, gənc və dinamik inkişaf edən bir dövlət imici qazandırıb. Bu isə Azərbaycanın Cənubi Qafqazda şəksiz lider mövqeyini göstərən mühüm faktordur. Bakı, əslində COP29-da sədrliyi dövründə nəinki bu möhtəşəm tədbirin episentri, həm də bütün dünyanın paytaxtına çevrildi.**

**Azərbaycanın evsahibliyi etdiyi COP29 əvvəlki iqlim konfranslarından fərqli olaraq köklü yanaşma nümayiş etdirib. Əgər əvvəlki konfranslarda inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə düzgün mübarizə aparmaq yolları öyrədilir və bu sahədə tövsiyələr verilirdisə, Azərbaycan COP29-da kifayət qədər cəsarətli yanaşma nümayiş etdirdi.**

**200-ə yaxın ölkənin konsensusu sayəsində Azərbaycanın COP29-un keçirildiyi məkan seçilməsi ölkəmizin bütün dünyada artan rolunu və beynəlxalq iqlim təşəbbüslərində fəal iştirakını vurğulayır. Bu hadisə ölkəmizin davamlı inkişafa sadiqliyini və əsas ekoloji problemlərin həllində əhəmiyyətli rolunu nümayiş etdirir.**







Azərbaycan müstəqilliyinin bərpasından sonrakı illərdə beynəlxalq sahədə növbəti uğura imza atdı. Bu uğuru sadəcə belə ifadə etmək olar: Tarixi Qələbə!

Ölkəmiz bu vaxta kimi bir sıra nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edib, bu tədbirin də ən yüksək səviyyədə keçəcəyi əvvəldən şübhə doğurmurdu. Azərbaycanın 2012-ci ildə “Eurovision”, 2015-ci ildə Birinci Avropa Oyunları, 2016-cı ildə Dördüncü İslam Həmrəyliyi Oyunları, habelə Formula 1 Bakı Qran Prisi kimi beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil və keçirməsi bunun sübutudur.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi olduqca mürəkkəb geosiyası vəziyyətə bir sıra dövlətlər arasında gərginliyin artması, rəqabətliliyin güclənməsinə baxmayaraq dünya ictimiyyətinin diqqətini məhz Bakıya yönəldə bildik. Bir sıra siyasi dairələrin ölkəmizə, nüfuzlu tədbirə kölgə salmaq səyləri iflasa uğradı.

Azərbaycan nəinki bütün dünyaya bu cür qlobal mahiyyət daşıyan tədbirin möhtəşəm təşkili mədəniyyətini göstərdi, həm də öz təklifləri, sərgilədiyi davranış və davamlı səyləri ilə örnək nümunəsi oldu. Hər şey Prezident İlham Əliyevin COP29 sessiyasının ilk günlərində keçirilən Liderlər Sammitində çıxışında dediyi kimi oldu: “Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək”. Belə də oldu, Bakı COP Tərəflər konfransları tarixinə əhəmiyyətli səhifə yazdı.

### Tarixi razılaşma

Noyabrın 23-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) - BMT Baş Assambleyasından sonra dünya liderlərinin ikinci ən böyük illik toplantısı başa çatdı. Təxminən 200 ölkəni bir araya gətirən bu tədbir, qlobal iqlim maliyyələşdirilməsi sistemində əsaslı dəyişikliklərə səbəb olacaq tarixi qərarlarla yadda qaldı.

### Bu qərarlar nələri ehtiva edir?

1. Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon dollar məbləğində iqlim maliyyələşdirilməsi yönəltməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədinin (BMG) qəbul edildiyini elan etdi. Bu məqsəd çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsini üç dəfə artırmaq, 2035-ci ilə qədər iqlim danışıqları çərçivəsində razılaşdırılmış əvvəlki 100 milyard ABŞ dolları hədəfinin artımını ildə 300 milyard ABŞ dollarına çatdırmaq barədə tarixi qərar əldə olundu.
2. COP29 zamanı BMT-nin yüksək səviyyəli karbon bazarlarına dair 10 il davam edən Paris Sazişinin 6-cı maddəsinin müzakirələri də uğurla başa çatdırıldı. Bu bazarlardan gözlənilən maliyyə axınlarının 2050-ci ilə qədər illik 1 trilyon dollara çatacağı proqnozlaşdırılır.
3. Bundan əlavə, COP29 Sədrliyi uzun zamandır ki, gözlənilən İtki və Zərər Fondunun yaradılması üzrə mühüm qərar qəbul etdi. Fondun 2025-ci ildən etibarən vəsaitlərin paylanmasına hazır olacağı bildirildi. Bu qərar, xüsusilə kiçik ada dövlətləri və az inkişaf etmiş ölkələr də daxil olmaqla, inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Bir faktı da əlavə edək: Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun məlumatına görə, 2023-cü ildə dünya hökumətləri hərbi xərclərə gündəlik 6,7 milyard dollar xərcləyiblər. Bu, o deməkdir ki, illik 300 milyard dollarlıq iqlim maliyyələşdirmə hədəfi dünyanın 45 günlük hərbi xərclərinə bərabərdir.

### Azərbaycan diplomatiyasının ciddi qələbəsi

Bakı zirvə toplantısı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizəyə baxışı üzrə iki fərqli yanaşmanı ortaq məxrəcə gətirə bilib. Bu müstəvidə Azərbaycan hər iki tərəflə münasibətlərində effektiv balanslı mövqe nümayiş etdirə bilib ki, bu da qəbul olunmuş qərarlarda özünü göstərir. Bu, Azərbaycan diplomatiyasının çox ciddi qələbəsidir.

Azərbaycanın mövqeyi ondan ibarət idi ki, ətraf mühitlə bağlı məsələlərin müzakirəsi artıq inkişaf etməkdə olan ölkələrin xeyrinə resursların yenidən bölüşdürülməsi üçün effektiv modellər hazırlamağa yönəlməlidir. Azərbaycan bu mövqeyi açıq şəkildə ifadə edə bildi: zəngin dövlətlər iqlim dəyişikliyi ilə mübarizədə yoxsullara kömək etməlidir.

Əldə olunmuş razılaşmalar və qərarlar onun göstəricisidir ki, COP29-a ev sahibliyi Azərbaycana bütün dünyada təşəbbüskar, gənc və dinamik inkişaf edən bir dövlət imici qazandırıb. Bu isə Azərbaycanın Cənubi Qafqazda şəksiz lider mövqeyini göstərən mühüm faktordur. Bakı, əslində COP29-da sədrliyi dövründə nəinki bu möhtəşəm tədbirin episentri, həm də bütün dünyanın paytaxtına çevrildi.

Bir sıra xarici ekspert və analitiklərin də qənaətlərinə görə, Azərbaycanın evsahibliyi etdiyi COP29 əvvəlki iqlim konfranslarından fərqli olaraq köklü yanaşma nümayiş etdirib. Əgər əvvəlki konfranslarda inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə düzgün mübarizə aparmaq yolları öyrədilir və bu sahədə tövsiyələr verilirdisə, Azərbaycan COP29-da kifayət qədər cəsarətli yanaşma nümayiş etdirdi.

Prezident İlham Əliyev beynəlxalq əhəmiyyətli tədbirin Liderlər Sammitindəki çıxışında bu mötəbər toplantının işinə kölgə salmağa çalışan Fransa və Niderland kimi ölkələrin səylərini tənqid etdi, onların ünvanına açıq müstəmləkəçilik ittihamları səsləndirdi. Ölkə başçısının bu çıxışı təkcə COP29-a gəlməkdən imtina edən müstəmləkəçilərin özlərini deyil, həm də Qlobal Cənub ölkələrini heyran qoydu. Azərbaycan bu dəfə, COP kimi beynəlxalq forumda da müstəqil siyasət yeritməyə əsaslı şəkildə sadiqliyini nümayiş etdirərək bir sıra ölkələrin rəğbətini qazandı.

Azərbaycan COP29-a yüksəksəviyyəli və nümunəvi evsahibliyi etdi. Tədbirlə bağlı heç bir xoşagəlməz hallara rast gəlinmədi. COP29-da 200-ə yaxın ölkənin nümayəndələrinin, 80-dən çox prezident, vitse-prezident və baş nazirin Azərbaycana gəlməsi antiazərbaycançı qüvvələrin növbəti iflası oldu. Bakının COP29-da qaldırdığı çox həssas məsələ iqlimin maliyyələşdirilməsidir. Qlobal istiləşmə proseslərinə əhəmiyyətli dərəcədə təsir edən ölkələr birgə məsuliyyət daşımaq istəmir və iqlim dəyişikliyinə ən həssas olan kiçik ada dövlətlərinə kömək etməkdən yayınır. COP29-da Azərbaycanın irəli sürdüyü ideyalar müzakirə olunub, məqsədəuyğun və düzgün hesab edilib.

### “Çətin səfər idi, amma razılığa gəldik”

BMT-nin İqlim Dəyişikliyi üzrə İcraçı katibi Saymon Stiell 24 noyabr 2024-cü il tarixində BMT-nin İqlim Dəyişikliyi Konfransının (COP29) bağlanışında söylədiyi nitqində COP29-un maliyyə konfransının Bakıda baş tutmasını təmin etdiyinə görə Azərbaycanın sədrliyinə minnətdarlığını çatdırıb. O qeyd edib ki, “iqlim dəyişikliyi hər bir ölkəyə təsir etdiyi üçün bu yeni maliyyə hədəfi bəşəriyyət üçün “sığorta siyasəti”dir. Ancaq hər hansı digər sığorta kimi, o, yalnız sığorta haqları tam və vaxtında ödənildikdə işləyir: milyardlarla insanın həyatını qorumaq üçün verilən vədlərə əməl edilməlidir. Bu saziş təmiz enerjinin kütləvi artımını qoruyacaq və bütün ölkələrə onun əhəmiyyətli faydalarını — daha çox iş yeri, daha güclü inkişaf və hər kəs üçün daha ucuz təmiz enerji əldə etməyə kömək edəcək”.

### “Bakıdan biz çox iş görərək ayrılırıq”

“Bakıda keçirilən COP29 əvvəlki Tərəflər Konfransında (COP 28) verilmiş vədləri insanları, planeti qorumaq və rifah yaratmaq üçün icra edilə bilən nəticələrə çevirməyə kömək edəcək bir tədbirdir. Və Bakıda məhz bunu mümkün etdik”.

Saymon Stiell qeyd edib ki, “COP29 iqlim dəyişikliyinin ön “cəbhəsində” olanların, xüsusən də əhalinin ən həssas təbəqələrinin real müdafiəsinin maliyyələşdirilməsinə kömək edəcək. COP29 təxminən on illik zəhmətdən, gərgin işdən sonra karbon bazarları ilə bağlı qlobal bir razılığa gəldi, əvvəlki bir neçə COP isə buna nail ola bilmədi. Heç bir ölkə əvvəlki COP-larda istədiyi hər şeyi ala bilmədi və Bakıdan isə biz çox iş görərək ayrılırıq”.

Bakının ev sahibliyi ilə başa çatan toplantını yüksək qiymətləndirən S.Stiell hesab edir ki, COP29-da verilmiş qərarlar milyardlarla insan üçün həyati əhəmiyyət kəsb edir.

S.Stiell növbəti Tərəflər Konfransına (Braziliya, Belem) qədər qollarımızı çırmalayıb səyləri ikiqat artırmağın vacibliyini bildirib. O hesab edir ki, BMT-nin Paris Sazişi real tərəqqini təmin edir, ancaq ölkələr hələ də “dövriyyəni artırmalıdırlar”. Unutmayaq ki, BMT-yə əsaslanan bu qlobal əməkdaşlıq olmasaydı, 5 dərəcə qlobal istiləşmə yolunda olardıq.

### “Bakıda biz irəliyə doğru daha bir mühüm addım atdıq”

İcraçı katib qeyd edir ki, biz hələ də tələb olunan kursdan uzağıq, yeni iqlim hədəfləri bizi yarışa qaytarmaq üçün çox vacib olacaq. Onlar Dubayda razılaşdığımız məqsədlərə, o cümlədən bərpa olunan enerjinin istifadəsini sürətlə genişləndirmək, qalıq yanacaqlardan uzaqlaşmaq və cəmiyyətləri daha davamlı olmaq üçün dəyişdirmək kimi məqsədlərə əsaslanmalıdır. İqtisadiyyatın bütün sahələrini və bütün cəmiyyəti əhatə edən planlar mühüm əhəmiyyət kəsb edir. Burada biz iki G20 ölkəsindən — Böyük Britaniya və Braziliyadan açıq siqnallar gördük ki, iqlim dəyişikliyi ilə bağlı daha güclü addımlar onların iqtisadiyyatlarının və insanlarının maraqlarına uyğundur:

“Bakıda tərəqqi çox çətinliklə əldə olunub. Gecə-gündüz işləyənlərin hamısına təşəkkür edirəm. Əldə etmək istədiyiniz milyardlarla həyatı daha təhlükəsiz və daha yaxşı edəcək. Vətəndaş cəmiyyəti tərəfindən tədbirə qoşulanların nəzərinə çatdırmaq istəyirəm ki, sizin fəaliyyətiniz prosesin irəliləməsinə kömək edir. Bu gün biz yeni məqsəd barədə razılığa gəldik və siz onun həyata keçirilməsində mühüm rol oynayacaqsınız. 200-ə yaxın ölkədən on minlərlə insanın bir araya gələrək iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərdə irəliləyiş əldə edə bilməsi üçün Katibliyin əməkdaşları da yorulmadan çalışdı və öz öhdəliklərini yerinə yetirdi”.

“Qarşımızda hələ çox uzun yol var, lakin burada, Bakıda biz irəliyə doğru daha bir mühüm addım atdıq. BMT-nin Paris razılaşması bəşəriyyəti xilas etmək planıdır; başqa heç nə yoxdur. Beləliklə, biz, Bakıda və burada təmsil olunan bütün ölkələr bu yolu birlikdə addımlayırıq. Mən Bakıdakı kimi çətin günlər gələndə gəmini doğru yolda saxlayan daha çalışqan bir qrup insan görmədim”.?

### Xüsusi məqam

BMT-nin İqlim Dəyişikliyi katibliyi (UNFCCC) COP29 Bakı toplantısında dünyada bir ilkə imza atıldığını qeyd edir. “COP29-da mühüm bir mərhələ baş verdi: ilk dəfə Gənclərin İqlim Forumunun işində uşaqların əhəmiyyətli iştirakını təmin etmək üçün xüsusi formatlar yaradıldı. Ən kiçiyinin yaşı 10 olmaqla dörd uşaq moderator və məruzəçi kimi çıxış edərək tərəflərin nümayəndələri və müşahidəçi təşkilatlarla birbaşa əlaqə qurdular. Onların iştirakı iqlim dəyişikliyi ilə mübarizə tədbirləri üçün inklüzivliyin və nəsillərarası əməkdaşlığın vacibliyini vurğuladı”.

### PISA — Azərbaycanın yeni təşəbbüsü

COP29 konfransı həm də təhsil və iqlim savadlılığı kimi mühüm inteqrasiyanı da gündəmə gətirdi. Azərbaycan bu platformada yenilikçi təşəbbüslə çıxış etdi. Və bu təşəbbüs COP29-un ruhuna cavab verən bir ilk oldu. Azərbaycanın təşəbbüsü ilə iqlim savadlılığı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2029-cu ildən etibarən dünyanın aparıcı təhsil meyarına daxil ediləcək. Bu da COP29-da elan edildi. Konfrans çərçivəsində keçirilən görüşdə elm və təhsil naziri Emin Əmrullayev və OECD-nin Təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer beynəlxalq qiymətləndirmə layihələrinin bir hissəsi kimi iqlim və ya ətraf mühit savadlılığının qiymətləndirilməsinin tətbiqi təşəbbüsünü elan ediblər.

Tədbirdə Elm və Təhsil Nazirliyi və OECD arasında PISA çərçivəsində iqlim savadlılığını qiymətləndirmə üzrə birgə əməkdaşlıq haqqında saziş imzalanıb. Sazişə əsasən, 2029-cu ildə keçiriləcək növbəti PISA tədqiqatında Azərbaycanın təşəbbüsü ilə dünyada şagirdlərin iqlim savadlılığına dair qiymətləndirilməsi ilə bağlı çərçivə sənədi və bu prosesin təşkilinə dair öyrənmə materialları hazırlanacaq.

COP29-da iştirak edən Kembric Universitetinin İqlim təhsili üzrə qlobal direktoru Kristin Özden xəbəri alqışlayıb: “Bu qərar məktəblərdə iqlim təhsilinin transformasiyanı təmin edəcək, həmçinin müxtəlif ölkələrdə yaşıl təhsil üçün lazımi dəlil və məlumatları təqdim edə biləcək son dərəcə arzuolunan təşəbbüsdür. Biz bilirik ki, gəncləri iqlim dəyişikliyinin əsas səbəblərini və nəticələrini anlamaq, dəyişən dünyamızda inkişaf etməyə, həll yollarını tapmağa hazırlamaq üçün lazım olan bacarıq, bilik və anlayışla təmin etmək üçün təhsil çox vacibdir”.

Qeyd edək ki, COP29 çərçivəsində keçirilən “təhsilin yaşıllaşdırılması və iqlim savadlılığı: təhsilin yaşıllaşdırılması” toplantısı iqlim təhsilinin inkişafına, ən yaxşı təcrübələrin mübadiləsinə və beynəlxalq tərəfdaşlığın gücləndirilməsinə həsr edilib.

### İqlim hərəkatında yeni presedent

Beləliklə, Azərbaycanın təşkil etdiyi COP29 iqlim konfransı ətraf mühitin qorunması üzrə qlobal səylərdə mühüm mərhələ oldu. 200-ə yaxın ölkənin konsensusu sayəsində Azərbaycanın COP29-un keçirildiyi məkan seçilməsi ölkəmizin bütün dünyada artan rolunu və beynəlxalq iqlim təşəbbüslərində fəal iştirakını vurğulayır. Bu hadisə ölkəmizin davamlı inkişafa sadiqliyini və əsas ekoloji problemlərin həllində əhəmiyyətli rolunu nümayiş etdirir.

Prezident İlham Əliyev daha yaşıl və davamlı gələcək yaratmaq naminə ölkələri bir araya gətirərək iqlim diplomatiyası üçün yeni presedent yaradıb. Bu impulsu qorumaq, vədləri hərəkətə, çətinlikləri davamlı bir planet üçün fürsətə çevirə bilərik.

COP29 bütün ölkələri “Yaşıl dünya naminə həmrəylik ili”ndə bir araya gətirdi. Bu tədbir iqlim siyasətində yeni impulslarla dolu idi və açıq şəkildə göstərdi ki, bütün ölkələrin öz sözləri var və töhfələrini vermək istəyirlər.

**Oruc MUSTAFAYEV**

# ZƏFƏRİN ELM VƏ TƏHSİL TƏNTƏNƏSİ

## Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin təsisindən 1 il ötür

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı əsasında yaradılmış Qarabağ Universiteti artıq bir yaşını tamamlayır. Qarabağ Universitetinin yaradılması Müzəffər Ali Baş Komandanımızın qətiyyətli rəhbərliyi və qəhrəman hərbçilərimizin şücaəti sayəsində həm 44 günlük Vətən müharibəsində, həm də bir gündən az davam edən antiterror tədbirlərində qazanılmış parlaq tarixi qələbələrin növbəti təntənəsidir.**







Eyni zamanda işğaldan azad olunmuş doğma torpaqlarımızda belə bir ali təhsil müəssisəsinin fəaliyyətə başlaması Ümummilli Liderimiz Heydər Əliyev irsinə sadiqliyin və Ulu Öndərin siyasi kursunun layiqli şəkildə davam etdirilməsinin məntiqi nəticələrindən biri kimi dəyərləndirilməlidir.

Qarabağ regionunda bərpa və inkişaf proseslərinin mühüm tərkib hissələrindən biri olan Qarabağ Universiteti təhsilin gücü ilə bölgəyə həyatvermə missiyasının əsas daşıyıcılarından hesab edilir.

Əsas məqsədi regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması olan Qarabağ Universiteti təkcə bölgənin deyil, həm də ölkəmizin aparıcı təhsil və elm mərkəzlərindən birinə çevrilməyi hədəfləyir.

Qarabağ Universiteti Vətəninə, xalqına və dövlətinə bağlı layiqli peşəkar kadrlar yetişdirməklə yanaşı, bölgədə güclü bir sosial-iqtisadi və mədəni ekosistemin formalaşmasında əhəmiyyətli rol oynamağı da başlıca məqsədlərindən müəyyən etmişdir. Ötən bir il ərzində həyata keçirilmiş fəaliyyətlər, əldə edilmiş nailiyyətlər və qarşıya qoyulmuş strateji vəzifələr məhz qeyd edilən istiqamətlərdə Qarabağ Universitetinin potensialının gücləndirilməsinə, milli və beynəlxalq ali təhsil məkanında tanıdılmasına və nüfuzunun artırılmasına xidmət etmişdir.

Təqdirəlayiq haldır ki, dövlətimizin diqqət və qayğısı sayəsində Qarabağ Universitetinin qurulması və ilk tədris ilinə hazırlığı istiqamətində işlər uğurla nəticələnmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 fevral tarixli müvafiq qərarı ilə Qarabağ Universitetinin Nizamnaməsi təsdiq edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2024-cü il tarixli sərəncamı ilə ehtiyat fondundan Elm və Təhsil Nazirliyinə Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün 10 (on) milyon manat maliyyə vəsaiti ayrılmışdır. Qarabağ Universitetinin fəaliyyətinin təmin edilməsi ilə əlaqədar bir sıra əmlakın Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin balansına qəbul edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 aprel tarixli müvafiq sərəncamı təsdiq edilmişdir.

Dövlət başçısının birbaşa diqqət və qayğısı nəticəsində qısa müddət ərzində universitetdə müasir tədris infrastrukturu yaradılmışdır. Bütün tədris binalarında əsaslı təmir işləri həyata keçirilmiş, auditoriya və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz olunmuşdur.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 laboratoriya yaradılmışdır. Bunlar fizika, kimya, mexatronika, Robototexnika, kompüter və qrafiki dizayn, Kompüter və proqramlaşdırma laboratoriyalarıdır.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanası tələbələrin istifadəsinə verilmişdir. Kitabxana xidmətlərindən eyni anda 200 tələbənin istifadəsi mümkündür. Kitabxananın kitab fondunda Azərbaycan, ingilis və rus dillərində 6000-dən çox dərslik, dərs vəsaiti və digər ədəbiyyatlar mövcuddur. Eyni zamanda tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər. Bundan başqa, kitabxanada elmi məqalələr, tədqiqatlar və digər akademik materiallarla zəngin "Scopus", "Web of Science" və digər mötəbər elmi məlumat bazalarına çıxış imkanları təqdim olunur. Kitabxanada müəllim və tələbələrin qrup şəklində fəaliyyətləri üçün müzakirə otaqları da yaradılmışdır.

Qarabağ Universitetinin tanıtımı istiqamətində kompleks fəaliyyətlər həyata keçirilmişdir. Universitetin loqosu, korporativ stili və sosial media hesabları yaradılmış, rəsmi vebsaytın hazırlanması ilə bağlı işlər isə yekunlaşmaq üzrədir. Qarabağ Universitetinin sosial media hesablarında bu ali təhsil müəssisəsində baş verən yeniliklər və tədbirlərlə bağlı müntəzəm məlumatlar yerləşdirilir. Həmçinin tanıtım videoçarxları hazırlanaraq bir sıra televiziya kanallarında, sosial media hesablarında və təbliğat görüşlərində nümayiş etdirilmişdir.

Eyni zamanda tələbə qəbulu imtahanlarının həyata keçirildiyi, ixtisas seçimlərinin yaxınlaşdığı ərəfədə abituriyentlər arasında təbliğat və təşviqat işlərinin həyata keçirilməsi başlıca fəaliyyət istiqamətlərindən birini təşkil etmişdir. Bakı, Qarabağ, Abşeron-Xızı, Mərkəzi-Aran, Quba-Xaçmaz, Qazax-Tovuz, Gəncə-Daşkəsən, Şirvan-Salyan, Mil-Muğan, Dağlıq Şirvan, Şəki-Zaqatala və Lənkəran-Astara regional təhsil idarələri üzrə ümumtəhsil müəssisələrindən məzun olan və buraxılış imtahanlarında yüksək bal toplayan abituriyentlər və onların valideynlərinin iştirakı ilə 32 təbliğat görüşü keçirilmişdir. Bununla yanaşı, Qarabağ Universitetində təşkil edilən SABAH qruplarının təbliği məqsədilə müvafiq ali təhsil müəssisələrinin birinci kurs tələbələri ilə 6 görüş baş tutmuşdur.

İlk tədris ilində Qarabağ Universitetində 6 fakültə yaradılmışdır: Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, Mühəndislik, İqtisadiyyat və Turizm.

Pedaqoji fakültədə "riyaziyyat müəllimliyi", "ibtidai sinif müəllimliyi", "xarici dil müəllimliyi (ingilis dili)", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasları üzrə tədris həyata keçirilir. İncəsənət fakültəsi "musiqi müəllimliyi", "dizayn", "instrumental ifaçılıq" və "vokal sənəti" ixtisaslarını əhatə edir. Humanitar və sosial elmlər fakültəsində "beynəlxalq münasibətlər", "hüquqşünaslıq", "tarix" və "psixologiya" ixtisasları üzrə kadr hazırlığı təşkil edilmişdir. Mühəndislik fakültəsində "elektrik və elektronika mühəndisliyi", "inşaat mühəndisliyi", "kompüter mühəndisliyi", "logistika və nəqliyyat texnologiyaları mühəndisliyi", "mexatronika və robototexnika mühəndisliyi" ixtisasları üzrə kadr hazırlığı nəzərdə tutulmuşdur. İqtisadiyyat fakültəsində "beynəlxalq ticarət və logistika", "iqtisadiyyat", "maliyyə", "menecment", "mühasibat", "dövlət və bələdiyyə idarəetməsi" ixtisasları tədris olunur. Turizm fakültəsində isə "turizm işinin təşkili ixtisası" üzrə yüksəkixtisaslı mütəxəssis hazırlığı aparılır.

2024/2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer ayrılmışdır. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən, 1104 tələbə qəbul olmuş və qəbul planı 98,5 faiz yerinə yetirilmiş, 1094 tələbə qeydiyyatdan keçmişdir.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfər 600-dən çox bal, 385 nəfər isə 500-dən çox bal toplamışdır. 683,8 balla ən yüksək nəticə göstərərək, "hüquqşünaslıq" ixtisası üzrə Qarabağ Universitetinə qəbul olan 1 tələbə Prezident təqaüdünə layiq görülmüşdür. Olimpiada qalibi olan 1 abituriyent universitetin "Elektrik və elektronika mühəndisliyi" ixtisasına müsabiqədənkənar qəbul edilmişdir. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə qəbul olan tələbələrin orta qəbul balı 467,6 təşkil etmişdir. Respublikamızın bütün regionlarını əhatə edən tələbələrin 54 faizi oğlan, 46 faizi isə qızdır.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində "hüquqşünaslıq", "xarici dil müəllimliyi (ingilis dili)", "maliyyə" və "mühasibat" ixtisasları üzrə SABAH qrupları təşkil olunmuşdur. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələr arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə hazırda sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsilini davam etdirir. Beləliklə, Qarabağ Universitetində ilk tədris ilinə 1154 tələbə ilə start verilmişdir.

Əlamətdar haldır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və iştirakı ilə məhz 20 Sentyabr Dövlət Suverenliyi Günündə Qarabağ Universitetinin açılışı baş tutmuşdur. Dövlət başçımızın qeyd etdiyi kimi: "Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir".

Dövlət başçısının Qarabağ Universitetinin açılış mərasimində iştirakı, tədris binası və yataqxanalardakı şəraitlə tanış olması, tələbə və müəllim heyəti ilə görüşü, həmçinin proqram xarakterli çıxışı bu ali təhsil müəssisəsinə göstərilən xüsusi diqqətin və əhəmiyyətin parlaq göstəricisi olmuşdur. Eyni zamanda, bu çıxış Qarabağ Universitetinin gələcək fəaliyyət istiqamətlərini müəyyən edən yol xəritəsinin əsasını təşkil etmişdir. Dövlət başçısının ali təhsil ocağının üzərinə qoyduğu vəzifələr və verdiyi tövsiyələr tələbə, professor-müəllim və inzibati heyət üçün həm böyük məsuliyyət, həm də inkişaf üçün geniş imkanlar açmışdır. Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi "Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir" ifadəsi artıq universitetimizin əsas hədəfi və devizi olaraq müəyyən edilmişdir.

Sentyabrın 23-də ilk tədris ilinə start verən Qarabağ Universitetində tədrisin təşkili üçün bütün zəruri sənədlər hazırlanmış və təsdiq edilmişdir. Yeni məzmunlu tədris planları, "Tədrisin təşkili qaydaları", "Qarabağ Universitetində professor-müəllim heyətinin elmi yaradıcılıq normaları", "Tələbə biliyinin qiymətləndirilməsi və imtahan qaydaları" hazırlanmışdır. Bütün ixtisaslar üzrə təhsil proqramları qabaqcıl milli və beynəlxalq təcrübələr nəzərə alınmaqla yeni məzmunda tərtib edilmişdir. Universitetin məqsədi tələbələrin ixtisasları üzrə zəruri kompetensiyalara yiyələnməsini təmin etmək, nəzəri biliklərlə yanaşı, onların praktiki bacarıqlarını da gücləndirməkdir.

Tələbələrin tədris prosesinə adaptasiya edilməsi üçün universitetdə oriyentasiya günləri təşkil edilmişdir. Məqsəd tələbələri akademik və sosial mühitlə tanış etmək, o cümlədən lazım olan resursları təqdim etməkdən ibarət olmuşdur. Bununla əlaqədar olaraq, bütün fakültələrdə akademik infosessiyalar keçirilmişdir. Tələbələr fakültələrin strukturu və heyəti ilə tanış olmuş, tədrisin təşkili qaydaları, tələbə nailiyyətlərinin qiymətləndirməsi meyarları, dərs cədvəlləri, sillabuslar və digər məsələlər haqda məlumatlandırılmışlar. Həmçinin universitet rektorunun bütün tələbələrlə, inzibati və akademik heyət üzvləri ilə görüşləri təşkil edilmişdir.

Qarabağ Universitetində payız semestrinin ilk aralıq imtahanları da uğurla yekunlaşmışdır. 2024-cü ilin 4-23 noyabr tarixləri arasında keçirilən imtahan prosesində yazılı, şifahi, təqdimat (layihə) əsaslı qiymətləndirmə, test üsulu ilə qiymətləndirmə, eyni zamanda çoxşaxəli üsullardan istifadə edilmişdir. İncəsənət fakültəsində aparılan imtahanlar isə ixtisaslara uyğun olaraq praktiki qiymətləndirmə əsasında təşkil edilmişdir.

Qarabağ Universitetinin tələbə və müəllim heyəti ilə görüşü zamanı dövlət başçısının vurğuladığı əsas məqamlardan biri gənclərin milli vətənpərvərlik ruhunda yetişdirilməsi və mənəvi hazırlığının önəmi olmuşdur. Prezident çıxışında qeyd etmişdir ki, "Birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. "Bu prinsip əsasında Qarabağ Universitetində gənclərin vətənpərvərlik tərbiyəsinin əsasını onların vətən sevgisinin, tarix və mədəniyyətə hörmətin, milli irsə bağlılığın və sosial məsuliyyət hisslərinin inkişaf etdirilməsi təşkil edir. Qarabağ Universitetində 8 Noyabr Zəfər Gününə həsr olunmuş müxtəlif formatlı tədbirlərdə tələbələrin fəal iştirakının təmin olunması məhz bu məqsədlərə xidmət etmişdir.

Bununla yanaşı, Qarabağ Universiteti ölkəmizdə, eləcə də onun hüdudlarından kənarda - Türkiyə, Çin, Rusiya, Misir, Özbəkistan və Yaponiyada təşkil olunan müxtəlif simpozium, forum, festival, konfrans, təhsil sərgisi, əmək yarmarkası və digər tədbirlərdə də fəal təmsil olunmuşdur. Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Türkiyə və Çinin bir sıra nüfuzlu universitetlərinin rəhbər heyəti ilə görüşlər keçirilmiş, müvafiq istiqamətlərdə işbirliyinin yaradılması ilə bağlı müzakirələr aparılmış və ilkin razılıqlar əldə edilmişdir. Bu istiqamətdə görülmüş işlərin nəticələrindən biri kimi, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 2024/2025-ci tədris ilindən etibarən Türkiyənin Ankara Hacı Bayram Veli Universitetinin 2 professorunun Qarabağ Universitetində birillik fəaliyyətə başlamasını qeyd etmək olar.

2024-cü ilin oktyabrında Qarabağ Universiteti Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə əməkdaşlıq haqqında memorandum imzalamaqla özəl sektorla əməkdaşlığa start vermişdir. Memoranduma əsasən, ABB tərəfindən universitetin ən yüksək təhsil nailiyyətləri olan 30 xanım tələbəsinə təqaüd veriləcək. Bununla yanaşı, əməkdaşlıq çərçivəsində təlim və təcrübə proqramlarının, karyera günlərinin keçirilməsi, tədris auditoriyasının yaradılması, birgə elmi konfransların və digər tədbirlərin təşkili, ortaq elmi-tədqiqat layihələrinin reallaşdırılması, qarşılıqlı ekspert-məsləhət dəstəyi də nəzərdə tutulmuşdur.

Əsas prioritetlərdən biri müasir universitet idarəetmə modelinin tətbiq olunmasıdır. Qarabağ Universiteti tələbə-mərkəzli yanaşma əsasında qurulur. Tədris prosesi və akademik mühit gənclərin maraq və ehtiyaclarına uyğun və onların hərtərəfli inkişafını dəstəkləyəcək şəkildə formalaşdırılır. Əsas məqsəd Ulu Öndərin ideyalarına sadiq, geniş dünyagörüşlü, vətənpərvər, dayanıqlı inkişaf düşüncəsinə malik, kreativ və innovativ bacarıqlara sahib bir nəsil yetişdirməkdir. Eyni zamanda tələbələrin texnoloji biliklərə yiyələnməsi, xarici dilləri mükəmməl mənimsəməsi, tədqiqat, startap, sahibkarlıq və kommunikasiya kimi yumşaq bacarıqlarının inkişaf etdirilməsi xüsusi diqqət mərkəzindədir. Bu yanaşma Qarabağ Universitetinin müasir, rəqabətədavamlı bir ali təhsil müəssisəsi kimi mövqeyinin güclənməsini təmin edir. Eyni zamanda bütün bunlar Qarabağ Universitetində tələbələrə maraqlı sosial həyat və məzmunlu tələbə mühiti təqdim edir. Bu kontekstdə, cari tədris ilində gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə tələbələr üçün aktual mövzularda təlimlər və maarifləndirici görüşlər keçirilmiş, idman oyunları və intellektual yarışlar, konsertlər təşkil edilmiş, tələbə təşkilatları və klublarının yaradılması istiqamətində müvafiq addımlar atılmışdır. Həmçinin tədris prosesinin başlanmasından ötən 2 ay ərzində Qarabağ Universitetində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Baş Prokurorluq, Gənclər və İdman Nazirliyi və digər dövlət və özəl qurumlarla keçirilən ortaq layihələrdən tələbələr faydalanmışdırlar.

Bununla yanaşı, Qarabağ Universiteti tədqiqat-mərkəzli universitet modeli əsasında qurulur. Universitetin müasir infrastrukturu, inkişaf etmiş laboratoriya bazası və yüksəksəviyyəli akademik heyəti, Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Azərbaycanın ümumi sosial-iqtisadi inkişafına töhfə verə biləcək mühüm elmi-tədqiqatların aparılmasına şərait yaradacaqdır. Qarabağ Universitetində nüfuzlu beynəlxalq elmi tədbirlərin keçirilməsi və universitetin professor-müəllim, tələbə heyətinin qlobal elmi platformalarda fəal təmsil olunması əsas prioritetlərdəndir. Bundan əlavə, xaricdə fəaliyyət göstərən azərbaycanlı alimlərin dəstəyi ilə elmi əməkdaşlığın genişləndirilməsi də xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma, Qarabağ Universitetini həm milli, həm də beynəlxalq səviyyədə elmi mərkəzə çevirmək məqsədinə xidmət edir. Bu məqsədlə, universitetin rəhbərliyi Dünya Azərbaycanlı Alimlər Birliyi (DAAB) və Türkiyədəki Azərbaycanlı Bilim İnsanları Dərnəyinin (ABİD) İdarə Heyəti üzvləri ilə görüşlər keçirərək genişmiqyaslı əməkdaşlıqların əsasını qoymuşdur.

Hazırda ölkənin və regionun əmək bazarının tələbləri nəzərə alınaraq universitetdə kadr hazırlığı istiqamətlərinin artırılması və buna müvafiq olaraq maddi-texniki bazanın genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Növbəti illərdə Tibb fakültəsi, Xocalıda Aqrar elmlər fakültəsi yaradılacaq. Eyni zamanda Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcəkdir. Bir sözlə, dövlət başçımızın qeyd etdiyi kimi, bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Bu yanaşma universitetin təhsil mərkəzi kimi regional inteqrasiyasını gücləndirəcəkdir. Qarabağ Universiteti, təhsil, tədqiqat və sosial xidmətlər vasitəsilə işğaldan azad olunmuş ərazilərdə həyatın yenidən qurulması və sosial-iqtisadi, mədəni mühitin inkişafı məqsədilə dövlətin həyata keçirdiyi genişmiqyaslı tədbirlərə əhəmiyyətli töhfə verəcəkdir.

İnanırıq ki, dövlətin diqqəti və qayğısı ilə müasir tələblər əsasında qurulan bu ali təhsil müəssisəsi yaxın zamanda regional ekosistemin əsas drayverinə çevriləcəkdir.

Universitet, "yaşıl transformasiya" yönümlü layihələrin reallaşdırıldığı əsas məkan olmaqla, davamlı inkişafa xidmət edən innovativ həllərin təşəbbüskarları arasında ön sıralarda yer alacaqdır. Bütün bunlar Qarabağ Universitetinin Azərbaycanın önəmli elm, təhsil və innovasiya mərkəzlərindən biri kimi dünyada tanınmasına imkan verəcəkdir.

**Şahin BAYRAMOV,**
**Qarabağ Universitetinin rektoru**

"Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir".

*Prezident İlham Əliyevin Qarabağ Universitetinin açılış mərasimindəki çıxışından*

# QƏRBİ AZƏRBAYCAN
# BİZ QAYIDACAĞIQ



## Prezident İlham Əliyev:

### “Mən şadam ki, bu məsələ ilə bağlı- bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur”

**“Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahalıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”.**

# İrəvan gimnaziyası:
## tarixin yaddaşında və müasir araşdırmalarda

**Son illərdə Qərbi Azərbaycanın ictimai-siyasi, mədəni-maarif həyatı, tarixi və coğrafiyası ilə bağlı xeyli maraqlı tədqiqatlar meydana gəlib. Həmin tədqiqatların metodoloji əsasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahalıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı – bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”- fikirləri təşkil edir.**

Qərbi Azərbaycanda təhsil və maarifçilik mühitinin inkişafı ilə bağlı aparılan araşdırmalarda pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun tədqiqatları yeniliyi və ilkinliyi ilə diqqəti cəlb edir. Professor Fərrux Rüstəmovun “İrəvan Müəllimlər Seminariyası və onun azərbaycanlı məzunları” (2022) və “İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları” (2024) kitablarında xeyli arxiv sənədləri, elmi mənbələr, xatirə yazıları, fotoşəkillər ilk dəfə elmi dövriyyəyə daxil edilir, təhlil olunaraq geniş oxucu auditoriyasına təqdim edilir.

“İrəvan gimnaziyası və onun azərbaycanlı məzunları” (2024, 479 s.) kitabının ideya müəllifi sənətşünaslıq elmləri doktoru, professor Ədalət Vəliyev, elmi redaktoru, Qərbi Azərbaycan İcmasının sədri, filologiya üzrə fəlsəfə doktoru, Milli Məclisin deputatı Əziz Ələkbərli, ön sözün müəllifi AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Misir Mərdanovdur. Kitaba tanınmış alimlər Nazim Mustafa, Cəbi Bəhramov, İbrahim Bayramov, Yaqub Babayev və Fərzalı Rüstəmli rəy veriblər.

“İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları” monoqrafiyası elə prinsiplər əsasında hazırlanıb ki, hər hansı bir tarixi tədqiqatda bu tələblərə əməl olunmazsa, tədqiqatın uğurundan, müəyyən səmərə, fayda verəcəyindən danışmaq olmaz. Tarixi pedaqoji hadisənin, problemin öyrənilməsi, bu sahədə hərtərəfli təhlillərin aparılması həmişə vaciblik qazanıb, xüsusi məsuliyyət tələb edən bir işdir. Hər hansı sahədə olursa olsun keçilmiş yol, tarixin yaddaş səhifələri necə varsa öyrənilməli, əsaslı tədqiqatlar yazılmalı, salnamələr hazırlanmalıdır. Bu yaddaş səhifələri müəyyən bir dövrün inkişaf mərhələsinin xüsusiyyətlərini, tələblərini özündə ehtiva etməlidir. Bu zaman tarixi hadisələrə yanaşmanın yeniliyi, axtarışların əhatəliliyi və tamlığı tədqiqat üçün şərtdir. Çünki zaman həmişə öz tələblərini ortalığa qoyur və onun həlli yollarını aktuallaşdırır. Günümüzün diqtəsi kimi bu cəhət professor Fərrux Rüstəmovun monoqrafiyasının adında, həcmində və məzmununda öz əksini layiqincə, yüksək səviyyədə tapır.

Əsərdə İrəvan kişi gimnaziyasının təşəkkülü və inkişaf mərhələləri tarixi təcrübə nəzərə alınmaqla kompleks şəkildə araşdırılır, qəza məktəbinin progimnaziyaya, progimnaziyanın gimnaziyaya çevrilməsini şərtləndirən amillər üzə çıxarılır. Qəza məktəbinin, progimnaziya və gimnaziyanın İrəvan maarifçilik mühitinin yaranmasında, azərbaycanlıların təhsilə cəlb edilməsində yeri və rolu müəyyənləşdirilir.

Professor F.Rüstəmov tarixi-pedaqoji fakta, elmi həqiqətə ciddi şəkildə və yüksək tələbkarlıqla yanaşan alimdir. O, şərh etdiyi hər bir fikirdə yalnız faktlara, arxiv sənədlərinə, dəlil-sübutlara istinad edir. Əsərdə müəllif gimnaziyanın tədris-təlim işlərini, təhsil müəssisəsinin təcrübi fəaliyyətini müxtəlif mənbələr - arxiv sənədləri və dövri nəşrlər əsasında öyrənir. Professor probleme aid özündən əvvəlki tədqiqatlara da “tarixi həqiqəti tapmaq” prizmasından yanaşır. Fərrux müəllim üçün müəllif nüfuzu deyil, həqiqətin nüfuzu önəmlidir və bu cəhət onun yaradıcılığının bütün dövrlərində yaxşı bir keyfiyyət kimi üzə çıxır. Bu əsərdə də müəllif çoxlu sayda arxiv sənədləri, dövrün rəsmi nəşrləri, bölgənin tarixi və sosial həyatı ilə maraqlanan rus ziyalılarının vaxtilə qələmə aldıqları təsvir xarakterli əsərləri və xatirələri diqqətlə araşdırıb, tarixi, ədəbi, pedaqoji mənbələrə güvənilərək elmi həqiqətin tamlığı və zənginliyinə nail ola bilib. İşin çətinliyi və mürəkkəbliyinə baxmayaraq, müəllif 680-dən çox elmi mənbədən seçdiyi fakt, rəqəm və müxtəlif nümunələr əsasında maraqlı təhlillər aparıb, gimnaziya həyatını təsvir etməyə nail olub.




Əsərin girişində heç bir tarixi və hüquqi əsası olmayan, çarizmin “parçala hökm sür” mənfur iddiasının qurbanı olmuş Qərbi Azərbaycanın təhsil tarixinin öyrənilməsi üçün müəllif kredosu aydın şəkildə ifadə edilib. Əsərin yazılma səbəbləri haqqında müəllif mövqeyi də maraqlıdır. Göstərilən beş səbəb mövzunun bütün əsas cəhətlərinin tədqiqat materialı kimi öyrənilməsinə təminat verir. XIX əsr və XX əsrin əvvəllərində İrəvan şəhəri Azərbaycanın qabaqcıl və diqqətçəkən mədəni mühit mərkəzlərindən biri olub. Məşhur İrəvanilər, Şahtaxtinskilər, Məmmədqulu bəy Kəngərli, Cəlil Məmmədquluzadə, Eynəli bəy Sultanov, Qəmərlinskilər, Firidun bəy Köçərli, ata və oğul Nərimanbəyovlar, Mirzə Cabbar Əsgərzadə və başqaları İrəvan mədəni mühitinin görkəmli simaları olublar.

Professor F.Rüstəmov monoqrafik tədqiqatlar üzrə yüksək elmi səriştə nümayiş etdirən tədqiqatçı alimlərimizdən biridir. Bu cəhət onun yaradıcılığı ilə tanış olanlar tərəfindən birmənalı şəkildə təsdiq olunur. İnamla demək olar ki, alimin əsərləri üçün fundamentallıq əsas keyfiyyətdir, tədqiqat obyekti kimi götürülmüş hər hansı bir problem hərtərəfli və sona qədər araşdırılır. Bu əsər də müəllifin tədqiqatçı imakanlarının yeni bir təzahürüdür. İrəvanın bu şöhrətli təhsil müəssisəsinin yaranma və inkişaf mərhələləri (qəza məktəbi, progimnaziya, gimnaziya), təhsilin məzmunu və metodları, tədris-tərbiyə işləri, məktəbin direktorları və fəxri nəzarətçilər, pedaqoji şura, elm-fənn müəllimləri, Azərbaycan dili və şəriət fənnini tədris edən müəllimlər, şagird kontingenti, gimnaziyanın kitabxanası, mədəni tədbirlərin (teatr tamaşaları və s.) keçirilməsi, məktəbin həkimləri haqqında müəllifin oxucunu məlumatlandıra bilməsi əsərin hərtərəfli, əhatəli tədqiqat olduğunu göstərir, elmi-pedaqoji mühit gənc tədqiqatçılar üçün də, faydalı ola biləcəyinə əminlik yaradır.

Sistemlilik, hadisələrin xronologiyası, ardıcıllığı tarixi-pedaqoji tədqiqatlarda həmişə gözlənilməsi vacib olan tələblər olub. Bu istiqamətdə hazırlanmış əsərlərdə öyrənilən problemin ümumi mənzərəsini yaratmaq, yüksək ümumiləşmiş səviyyədə həllinə nail olmağın, onu fikir, düşüncə materialına çevirməyin mümkün yolu belədir. Müəllifin gimnaziyanın direktorları V.İ.Brajnikov, Q.A.Boqolyubovski, F.Y.Kotilevski, F.İ.Stasenko, E.A.Çoqaşvili), azərbaycanlı müəllimləri və məzunları haqqında topladığı məlumatlar tədqiqatçı əməyinin, zəhmətlə dolu günlərin, dözüm və səbirdən yoğrulmuş axtarışların bəhrəsidir.

Tədqiqatda gimnaziyanın azərbaycanlı müəllimləri, onların həyat və pedaqoji fəaliyyəti haqqında aşkarlanmış səhifələr əsərin oxunaqlı olması ilə yanaşı, elmi səviyyəsinə də işıq salır. Bu şöhrətli tədris müəssisəsinin qəza məktəbi kimi fəaliyyəti dövründə Mirzə Molla Tağı Mahmud oğlu, Mirzə Ələkbər Elxanov, progimnaziya dövründə yenə Mirzə Ələkbər Elxanov (1881-1885), müstəqil gimnaziya kimi fəaliyyəti dövründə isə Firidun bəy Köçərli (1885-1895), İsmayıl bəy Şəfibəyov (1896-1918), şəriət müəllimləri Mirzə Məmməd Şeyxzadə, Şeyx Əbusəttar Kazımov olubdur. Müəllif bu Azərbaycan dili müəllimləri haqqında yeni faktlar üzə çıxara bilib, onların həyat və fəaliyyəti ilə bağlı tədqiqatlardakı təhriflərə aydınlıq gətirib.

Əsərdə yüzə yaxın (Əziz Əliyev, Mustafa Tobçubaşov, Əhməd Rəcəbli və b.) məzun haqqında verilmiş tərcümeyi-hal xarakterli məlumatlar axtarış, məzmun istiqamətinə görə digər fəsillərdən heç də geridə qalmır. Bu məsələ ayrıca bir tədqiqat problemi, araşdırma materialı da ola bilər. Xüsusi qeyd edək ki, müəyyən səbəblərdən, ermənilərin bədnam niyyətlərinin ucbatından bu mövzunun öyrənilməsi zamanı azərbaycanlı məzunlar haqqında arxiv sənədlərindən istifadə etmək çətinliyi də var. Tədqiqi mənbələr də gimnaziya məzunları haqqında geniş məlumat vermək imkanına malik deyil. Monoqrafiyada məzunların əksəriyyəti haqqında verilən məlumatlar müəllif axtarışlarının nəticəsidir. Onların ictimai-mədəni, maarifçi-pedaqoji fəaliyyətinin üzə çıxarılması yönündə işin ağırlığı müəllifin üzərinə düşür. Əlbəttə, məzunlar haqqında az da olsa arxiv sənədlərində, qismən dövrü nəşrlərdə, tədqiqat əsərlərindəki məlumatlar, faktlar əhəmiyyətli olsa da, kifayətləndirici deyil. Onların ailələri, yaxın qohumları, birlikdə təhsil aldığı tələbə dostları və iş yoldaşları ilə əlaqə yaratmaq, yetişdirdiyi gəncliyin xatirələrini vərəqləməyi bacarmaq, başlıcası verilən məlumatların səhihliyinə, doğru-düzgünlüyünə əmin olmaq və s. bu kimi işlər böyük inadkarlıq, təmkinlik, tədqiqatçı bacarığı tələb edir ki, əsərdə bu cəhəti görür və hiss edirik.

Əsər iki çox mühüm funksiyanın yerinə yetirilməsinə-müəyyən bir tarixi-pedaqoji problemin həllinə və müasir pedaqoji elmimizin zənginləşməsinə layiqli töhfə kimi qiymətləndirilə bilər.

Professor F.Rüstəmov “İrəvan gimnaziyası və onun məzunları” əsəri ilə tarixin yaddaşına süzülən İrəvan gimnaziyasının fəaliyyətinə hərtərəfli baxıb və necə deyərlər, onun şərəfli tarixini uca tutan bir tədqiqat işi yarada bilib. Kitabı İrəvan gimnaziyasının azərbaycanlı məzunlarının şərəfinə ucaldılmış mənəvi abidə adlandırmaqla, müəllifin bu sahədəki xidmətlərini bir daha pedaqoji ictimaiyyətin diqqətinə çatdırmış oluruq.

**İsmayıl ƏLİYEV,**
**Naxçıvan Dövlət Universitetinin professoru, pedaqoji elmlər doktoru**

**Vahid RZAYEV,**
**Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**

# Prezident sərəncamlar imzalayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Siyavuş Əşrəf oğlu Kərimin Azərbaycan Milli Konservatoriyasının rektoru vəzifəsindən azad edilməsi haqqında 27 noyabr 2024-cü il tarixli Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamı ilə Kamilə Hüseyn qızı Dadaş-zadə Azərbaycan Milli Konservatoriyasının rektoru təyin edilib.

Prezident İlham Əliyev noyabrın 27-də Azad Sevindik oğlu Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında da Sərəncam imzalayıb.

# Elm və təhsil naziri Qazaxıstan səfiri ilə görüşüb

Noyabrın 28-də elm və təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və ali təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.



# Elm və təhsil naziri Neftçalada vətəndaşları qəbul edib



Noyabrın 29-da elm və təhsil naziri Emin Əmrullayev Neftçala şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Neftçala, Hacıqabul, Şirvan, Salyan və Biləsuvar sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Qəbul zamanı vətəndaşlar müəllimlərin yerdəyişməsi, işlə təmin olunma, təhsil müəssisələrinin təmir-tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# İkitərəfli əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib



## Emin Əmrullayev Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi ilə görüşüb

Noyabrın 28-də elm və təhsil naziri Emin Əmrullayev Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı ilə görüşüb.

Görüş çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı ilə ikitərəfli əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Azərbaycan Milli Konservatoriyasının yeni rektoru kollektivə təqdim olunub

**Azərbaycan Milli Konservatoriyasının rektoru vəzifəsinə təyin edilən Kamilə Dadaş-zadə noyabrın 28-də müəssisə kollektivinə təqdim olunub.**





Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov əvvəlcə konservatoriyanın rektoru vəzifəsində çalışmış Siyavuş Kərimiyə ali təhsil müəssisəsinin uğurlu fəaliyyəti, bu günədək qazandığı nailiyyətlərdəki xüsusi əməyinə görə təşəkkür edib. Kamilə Dadaş-zadəyə fəaliyyətində uğurlar arzulayan nazir müavini milli musiqinin inkişaf tendensiyaları nəzərə alınmaqla qarşıda duran məqsəd və vəzifələri yeni rektorun və konservatoriyanın kollektivinin diqqətinə çatdırıb.

Çıxış edən Siyavuş Kərimi Azərbaycan Milli Konservatoriyasının yaradılması tarixi və fəaliyyətinə toxunub, Kamilə Dadaş-zadəyə yeni fəaliyyətində uğurlar arzulayıb.

Sonda çıxış edən rektor Kamilə Dadaş-zadə ona göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib və üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəyini, akademiyada qoyulan ənənələrə sadiq qalacağını qeyd edib.

# Anar İsgəndərov:

# "Sertifikatlaşdırmanın əhatə dairəsinin genişləndirilməsi vacibdir"

**Azərbaycanda təhsilverənlərin sertifikatlaşdırılmasının həyata keçirilməsinə 2022-ci ildə başlanılıb. İndiyədək ölkədə 65 minə yaxın müəllim prosesə cəlb edilib ki, onların da 55 min nəfəri bu mərhələni uğurla keçib. Proses nəticəsində müəllimlərin 38 min nəfərdən çoxunun əməkhaqqına 10 faiz, 17 min nəfərdən çoxunun əməkhaqqına isə 35 faiz əlavə tətbiq edilib. Əməkhaqqına 10 faiz əlavə tətbiq olunmuş müəllimlərin orta aylıq əməkhaqqı 980 manata, 35 faiz əlavə tətbiq olunan təhsilverənlərin orta aylıq əməkhaqqı isə 1295 manata yüksəlib.**




## Komitə sədri: "Bu proses müəllimlərin işinin keyfiyyətinin artırılması baxımından böyük əhəmiyyətə malikdir"

Növbəti ildə əlavə 20 mindən çox müəllimin bu prosesə cəlb olunacağı nəzərdə tutulub. Bu məqsədlə 2025-ci ilin dövlət büdcəsindən əlavə 60.8 milyon manat olmaqla, ümumilikdə sertifikatlaşdırma çərçivəsində əməkhaqqı əlavələri üçün 154.4 milyon manat vəsaitin ayrılacağı proqnozlaşdırılır.

Qeyd edək ki, sertikatlaşdırmaya cəlb ediləcək müəllimlərin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur. Ölkədə məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin, eyni zamanda məktəbdənkənar təhsil müəssisələrinin məşqçi-müəllimlərin də sertifikatlaşdırılacağı gözlənilir.

"Azərbaycan müəllimi"nə sertifikatlaşdırmanın əhəmiyyəti haqqında danışan Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərovun sözlərinə görə, bu proses uzun illər məktəbdə işləyən bəzi müəllimlərin öyrətmə bacarığının olmadığını üzə çıxarır. Bu, onu göstərir ki, bəzi müəllimlər ya tədris etdiyi fənni yaxşı bilmir, ya da zəif bilir: "Sertifikatlaşdırmanın sadə bir tərifi var. Müəllim öz ixtisası üzrə imtahan verib uğur qazanırsa, diferensial əməkhaqqı sistemi əsasında maaşında artım baş verir, uğur qazanmırsa, məktəbdə işləyə bilmir. Burada qeyri-adi bir şey yoxdur, çox sadə məntiqdir. Həyatın bütün sahələrində belədir. İdmançının o zaman uğur qazandığını deyirik ki, o, hansısa yarışda I, II və ya III yeri tutur. İdmançı ən yüksək nəticə qazandığı zaman təltif olunur. Müəllim bu sahənin öyrədənidirsə, onun imtahanda çətinliyi, imtahan verməklə bağlı problemi olmamalıdır. Çünki söhbət onun uzun illər tədris etdiyi fəndən gedir".

Sertifikatlaşdırma Elm və Təhsil Nazirliyinin Azərbaycan təhsilinə gətirdiyi uğurlu hadisələrdən biridir.

Müsahibimiz hesab edir ki, hansısa müəllim bu prosesdə uğursuz nəticə göstərirsə, problemi özündə axtarmalıdır: "Araşdıranda məlum olur ki, müəllim 90-cı illərin əvvəllərində hansısa yolla diplom əldə edib. Minlərlə saxta diplomlar üzə çıxdı. Bəziləri elə diplom əldə etdiyi yollardan istifadə edərək məktəbə yol tapıb. Nəticə bu gün sertifikatlaşdırmada üzə çıxır".

Komitə sədri sertifikatlaşdırmanın, ilk növbədə, müəllimin xeyrinə olduğunu deyib: "Müəllimin nüfuzu artır, əməkhaqqı yüksəlir, müəllim diqqət mərkəzində olur. İmtahanda yüksək nəticənin də, uğursuzluğun da nəticələri geniş müzakirə olunur".

A.İsgəndərov qeyd edib ki, Elm və təhsil komitəsinin sədri kimi ona müraciət edən müəllimlərin sertifikatlaşdırılmasının nəticələri ilə maraqlanır: "Özüm də müəllim olduğum üçün, ilk növbədə, bu nəticələrlə maraqlanıram. Nəticəsi qənaətbəxş olmayan, dünənə qədər müəllim adı daşıyan vətəndaşlardan soruşuram: 20 ildir tədris etdiyiniz fənn sualları aydın idimi? Sertifikatlaşdırmada proqramdan kənar sual vardımı? Elə isə topladığınız bal niyə aşağı olub? Burada sertifikatlaşdırmanın günahı nədir?"

Komitə sədrinin fikrincə bu gün müəllim adını qorumaq, onların uğurlarını nümayiş etdirmək, əməkhaqqının artımı üçün ən yaxşı vasitə sertifikatlaşdırmadır. Üstəlik, bu proses ən sadə, ən şəffaf yolla həyata keçirilir: müəllim, kompüter, başqa heç kim. Bundan yaxşı, ədalətli nə ola bilər ki?!: "İndiki Azərbaycan 30 il əvvəlki ölkə deyil. Qalib Azərbaycanın təhsil sahəsində də uğurları olmalıdır. Təhsil insan həyatında yeganə sahədir ki, hamının evinə daxil olur. Hamının evində şagird, valideyn, müəllim var. Savadlı, vətənpərvər, ziyalı insan yetişdirmək Azərbaycan təhsilinin başlıca məqsədidir. Ziyalı kimi hesab edirəm ki, sertifikatlaşdırma müsbət hadisədir. Onun əhatə dairəsinin genişləndirilməsi vacibdir. Bu proses şagirdlərin şəxsiyyət kimi yetişməsində rol oynayan müəllimlərin işinin keyfiyyətinin artırılması baxımından böyük əhəmiyyətə malikdir".

**İlhamə İSABALAYEVA**

# Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun nümayəndə heyəti ilə görüş





Noyabrın 25-də Elm və Təhsil Nazirliyində Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) nümayəndə heyəti ilə görüş keçirilib. Nümayəndə heyətinin tərkibində institutun direktoru akademik Qriqori Trubnikov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Otiliya-Aka Kulikov, eləcə də laboratoriya müdirləri O.Belov və N.Kuçerka təmsil olunublar.

Görüşdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, nazirliyin Elm və ali təhsil siyasəti, Beynəlxalq əməkdaşlıq şöbələrinin, eləcə də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin rəhbər şəxsləri iştirak ediblər.

Görüş zamanı qonaqlara Azərbaycan təhsil sistemində aparılan islahatlar, eləcə də Elm və Təhsil Nazirliyinin yaradılmasının zəruriliyi barədə məlumat verilib. BNTİ-nin nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində bir sıra elm və ali təhsil müəssisələrinin rəhbərləri ilə baş tutan görüşlərdə müzakirə edilən əməkdaşlıq perspektivlərindən danışılıb.

Qriqori Trubnikov 16 ölkənin üzv olduğu BNTİ-nin elmin müxtəlif istiqamətləri, xüsusilə nüvə və aerokosmik texnologiyaların inkişaf etdirilməsində nailiyyətlərini xüsusi vurğulayıb və institutda aparılan tədqiqatların elmi aktuallığını diqqətə çatdırıb.

Görüşün sonunda nazir müavini Firudin Qurbanov və akademik Qriqori Trubnikov qarşılıqlı əməkdaşlığın davam etdirilməsi istiqamətində birgə səylərin atılacağını bir daha vurğulayıblar.

Qeyd edək ki, Azərbaycan BNTİ-yə üzv olduğu dövrdən nüvə fizikası sahəsindəki tədqiqatları bu beynəlxalq statuslu institutla, digər beynəlxalq qurumlarla, o cümlədən Avropa Nüvə Tədqiqatlar Mərkəzi (CERN) ilə qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirib. Ətraf mühitin qorunması və radioekologiya sahəsində aparılmış tədqiqatlar, ölkəmiz üçün çox əhəmiyyətli tibbi müalicə üsulları (onkologiya və s.) sahəsində yüksək hazırlıqlı radioloqların hazırlanmasını buna misal olaraq göstərmək mümkündür.

# Nazir müavini Firudin Qurbanov "Maarifçi"lərlə görüşüb






Noyabrın 28-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov "Maarifçi" tələbə—məzun təcrübə proqramının II mərhələsinin iştirakçıları ilə görüşüb.

"Maarifçi"ləri salamlayan nazir müavini proqramın gənclərə böyük təcrübə qazanmaq imkanı yaratdığını deyib və bu təşəbbüsün mahiyyəti haqqında danışıb. Firudin Qurbanov bildirib ki, proqram iştirakçılarının hazırda qazandıqları təcrübə onların peşəkar kadr kimi formalaşmalarında mühüm rol oynayır.

Daha sonra nazir müavini karyera planlaması, yaxşı mütəxəssis olmaq üçün vacib şərtləri qeyd edib və tövsiyələrini verib.

Görüşdə çıxış edən "Maarifçi"lər gənclərə belə bir fürsət yaradıldığı üçün təşəkkürlərini ifadə ediblər, həmçinin proqramın üstünlüklərini vurğulayıblar.

Tədbirdə iştirakçıları maraqlandıran suallar da cavablandırılıb.

Qeyd edək ki, 37 nəfər "Maarifçi" tələbə-məzun təcrübə proqramının II mərhələsində iştirak hüququ qazanıb. 3 ay davam edən proqram çərçivəsində iştirakçılar Elm və Təhsil Nazirliyi və onun tabe qurumları, həmçinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində təcrübə keçirlər.

# IX Respublika Fənn Müsabiqələrinin mükafatlandırma mərasimi keçirilib





Noyabrın 29-da Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı, Bakı Ali Neft Məktəbinin ev sahibliyi ilə məktəblilərarası IX Fənn Müsabiqələrinin mükafatlandırma mərasimi keçirilib.

Açılış nitqi ilə çıxış edən Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev fənn müsabiqələrinin keçirilmə məqsədi və nəticələri barədə çıxış edib. İstedadlı gənclərə dəstəyin ölkənin innovativ və intellektual inkişafında mühüm rol oynadığını qeyd edən Fuad Qarayev bu cür müsabiqələrin şagirdlərin yüksək intellektual potensialını dəstəkləmək və onların uğurlarını qeyd etmək məqsədilə təşkil edildiyini bildirib.

Fuad Qarayev bildirib ki, sözügedən müsabiqədə ümumilikdə 43111 şagird iştirak edib. Onlardan 8800 nəfər yarımfinal mərhələsinə vəsiqə qazanıb. Müsabiqənin nəticələrinə əsasən, 307 şagird qalib olub. Onlardan 58 nəfər qızıl, 95 nəfər gümüş, 154 nəfər isə bürünc medalla təltif olunub. Qaliblərin 189 nəfəri oğlan, 118 nəfəri isə qızdır.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov müsabiqənin təhsilin inkişafına verdiyi töhfələr, qaliblərin əldə etdiyi uğurların Azərbaycanın gələcəyi üçün əhəmiyyəti barədə fikirlərini bölüşüb, bu cür istedadların üzə çıxarılmasının ölkəmizin gələcək elmi kadr potensialının formalaşması baxımından önəmli rolunu vurğulayıb.

Çıxışının sonunda nazir müavini bu cür bilik yarışları ilə şagirdlərin yalnız elm deyil, dünyagörüşü qazandıqlarını da bildirərək qalibləri təbrik edib və onlara gələcək həyatlarında uğurlar arzulayıb.

Tədbirdə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva bu cür müsabiqələrin şagirdləri gələcəyə stimullaşdırdığını vurğulayaraq bu yarışlarda yalnız qalibiyyətin deyil, iştirakın da əhəmiyyətli olduğunu bildirib.

Daha sonra mükafatlandırma mərasiminə ev sahibliyi edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayıb və şagirdləri təbrik edib.

Sonda müsabiqə qalibləri diplom və müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, məktəblilərarası fənn müsabiqələri 6 və 7-ci sinif şagirdləri arasında riyaziyyat, informatika, təbiət, kimya, fizika, biologiya fənləri üzrə 3 mərhələdə təşkil olunur.

# "Qlobal İnnovasiya İndeksi"nin insan kapitalı ilə bağlı göstəricilərin yaxşılaşdırılması üzrə müzakirələr aparılıb






Noyabrın 27-də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Elm və Təhsil Nazirliyinin rəhbərlik etdiyi "İnsan kapitalı" işçi qrupunun növbəti iclası keçirilib.

Elm və Təhsil Nazirliyində keçirilən iclasda işçi qrupun rəhbəri, elm və təhsil nazirinin müavini İdris İsayev və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış nitqi ilə çıxış edərək işçi qrupunun ötən dövr üzrə olan ümumi fəaliyyəti, əldə edilmiş uğurlar və gələcək gözləntilər barədə danışıblar.

Daha sonra Maliyyə Nazirliyinin Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrinin maliyyəsi şöbəsinin sektor müdiri Şababa Əliyev Qlobal İnnovasiya İndeksinin "2.1.1.Təhsil xərcləri" indikatorunun icra vəziyyətinə dair təqdimat edib.

İclas işçi qrupun digər üzvləri Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman, İqtisadiyyat Nazirliyinin sektor müdiri Natiq Məmmədli, Dövlət Statistika Komitəsinin Sosial statistika şöbəsinin müdiri Elçin Hacının Qlobal İnnovasiya İndeksinin aidiyyəti alt-indeksləri üzrə təqdimatları ilə davam edib.

İclasda İşçi qrupun Fəaliyyət Planına daxil olan hər bir indikatorla bağlı görülmüş işlər, "Qlobal İnnovasiya İndeksi-2024" hesabatı üzrə Azərbaycanın göstəriciləri əvvəlki illərlə müqayisəli təhlil edilib və bu göstəricilərin daha da yaxşılaşdırılması məqsədilə hazırlanmış müvafiq təhlil materialı və digər məsələlər müzakirə olunub.

Yekunda işçi qrupun fəaliyyəti ilə bağlı müvafiq qərarlar qəbul edilib.

Qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "İnsan kapitalı" işçi qrupuna rəhbərliyi Elm və Təhsil Nazirliyi həyata keçirir.

# BDU ilə Çinin Anhui Universiteti daha bir istiqamətdə ikili diplom proqramı imzalayacaq




Bakı Dövlət Universiteti (BDU) və Çinin Anhui Universitetinin əməkdaşları arasında onlayn görüş keçirilib.

Universitetdən "Azərbaycan müəllimi"nə bildirilib ki, görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, BDU-nun nəzdində Konfutsi İnstitutunun direktoru Vanq Haoqianq, Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev, dekan müavini Vüsal Məmmədov, Nanomaterialların kimyəvi fizikası kafedrasının baş müəllimi Lalə Qəhrəmanlı, Anhui Universitetinin Materiallar elmi və mühəndisliyi fakültəsinin dekan müavini Yu Xin-Yao və həmin fakültənin xarici əlaqələr üzrə katibi Deng Min iştirak ediblər.

Görüşdə hər iki universitet arasında əməkdaşlıq perspektivləri müzakirə edilib. BDU-nun Fizika fakültəsi ilə Anhui Universitetinin Materiallar elmi və mühəndisliyi fakültəsi arasında ikili diplom proqramı üzrə ixtisaslaşma istiqamətləri, tədris proqramlarının uyğunlaşdırılması və tələbə mübadiləsi mexanizmləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda "Yarımkeçirici cihazlar və mikroelektronika", "Optoelektronika" və "Kvant elektronikası" kimi sahələrdə magistratura səviyyəsində ikili diplom proqramının yaradılması ilə bağlı ilkin razılıq əldə olunub.

# ADNSU və Riqa Texniki Universiteti arasında çoxşaxəli əməkdaşlığa dair razılıq əldə olunub



Noyabrın 26-da Latviyada işgüzar səfərdə olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektor əvəzi dosent Vazeh Əskərov Riqa Texniki Universitetinin (RTU) rektoru Talis Juhna ilə görüşüb.

Bu barədə universitetdən "Azərbaycan müəllimi"nə məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının Latviya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Elnur Sultanovun təşkilatçılığı ilə keçirilən görüşdə iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq imkanları geniş müzakirə olunub və bir sıra vacib istiqamətlərdə birgə fəaliyyətə maraq ifadə edilib.

Görüşdə hər iki tərəf tələbələr, müəllimlər və tədqiqatçılar arasında mobillik mübadilə proqramlarının yaradılmasını akademik və mədəni əlaqələrin inkişafı baxımından vacib hesab edib. Bundan əlavə, qlobal çağırışların, xüsusilə davamlılıq, enerji və qabaqcıl texnologiyaların həllinə yönəlmiş birgə tədqiqat platformasının qurulması təklif edilib. ADNSU-nun doktorantura proqramlarının təkmilləşdirilməsi və elmi araşdırmaların təsirinin artırılması məqsədilə RTU-nun CERN laboratoriyaları ilə əməkdaşlıq modeli nümunəsində oxşar proqramların həyata keçirilməsi də toxunulan məsələlərdən olub.

Görüşdə həmçinin tələbələr üçün birgə yay məktəblərinin təşkili məsələsi nəzərdən keçirilib. Hər iki tərəf beynəlxalq reytinqlərdə mövqelərini daha da gücləndirmək məqsədilə əməkdaşlıq etməyin önəmini qeyd edib. Görüşdə ADNSU və RTU arasında qurulmuş əməkdaşlığın gələcəkdə hər iki universitetin beynəlxalq səviyyədə nailiyyətlərini daha da artırmağa xidmət edəcəyinə əminlik ifadə olunub.

# Əsas hədəf sənayenin ehtiyaclarına uyğun kadr hazırlığıdır

## Rüfət Əzizov:

## "SDU yalnız sənaye şəhəri üçün kadr yetişdirmir, həm də klassik universitetdir"

**Hazırda yalnız sənaye sektoru üzrə deyil, müxtəlif istiqamətlər üzrə kadr hazırlığı həyata keçirən Sumqayıt Dövlət Universitetinin (SDU) nüfuzlu reytinqlərdə fəal iştirakı onun beynəlxalq miqyasda tanınmasında mühüm rol oynayır. Reytinqlərdə iştirak SDU-nun fəaliyyət göstəricilərinin yüksəldilməsini və bu istiqamətdə bir çox vacib tədbirlərin həyata keçirilməsini zəruri edir. SDU-nun rektoru Rüfət Əzizov "Azərbaycan müəllimi"nə müsahibəsində universitetin fəaliyyəti ilə bağlı bəzi məsələlər barədə danışıb.**

**Hazırda nəinki Azərbaycanda, eləcə də bütün dünyada iqlim savadlılığının artırılması müzakirə olunan əsas məsələlərdən biridir. Sizcə, ölkəmizdə ali təhsil pilləsində iqlim savadlılığının tədrisi hansı səviyyədədir və bu imkanların artırılması üçün nə etmək olar?**



Əslində, iqlim savadlılığının artırılması ilə bağlı təhsil ayrıca başa düşülməməlidir. İstər ali təhsildə, istərsə də ümumi təhsildə bu, ümumi təhsil sisteminin böyük bir hissəsi olmalıdır. Bu, yalnız bir layihə, fənn və ya proqram kimi deyil, bütün mövcud fənlərə, ixtisaslara və təhsilin bütün səviyyələrinə inteqrasiya edilməlidir. Biz buna hərtərəfli baxmalıyıq. Ona görə də günün tələblərinə uyğun olaraq, istər ümumi, istər ali təhsildə iqlim dəyişikliyi ilə bağlı olan problemləri və digər davamlı inkişaf elementlərini nəzərə alaraq, proqramlarımızı yeniləsək, lazım olan pedaqoji yanaşmaları tətbiq etsək, dəyərləndirmə metodlarından istifadə etsək, bu, daha fundamental bir iş olacaq. Bu baxış ilə ümumi və ali təhsildə geniş şəkildə yanaşma tətbiq edə bilərik.

Konkret məsələlərə gəlincə, son dövrlərdə Azərbaycan ali təhsil müəssisələri bu sahədə böyük işlər görür. Əsas məsələ odur ki, hazırda hər bir universitet öz göstəricilərini qiymətləndirmək üçün beynəlxalq reytinqlərdə iştirak edir. Məsələn, Azərbaycan universitetləri "Times Higher Education" tərəfindən nəşr olunan reytinqdə iştirak edirlər. Bu reytinqlərdə enerji effektivliyi, nəqliyyat, tullantılarının idarə olunması, suyun qənaətlə istifadəsi, tədqiqat və təhsildə davamlı inkişafla bağlı meyarlar nəzərə alınır. Universitetlər öz fəaliyyətlərini bu meyarlara uyğun qiymətləndirir, proqramlarını yeniləyir və müəllimləri maarifləndirirlər.

Eyni zamanda QS (Quacquarelli Symonds) davamlı inkişaf reytinqlərində iştirak edən Azərbaycan universitetləri öz nailiyyətlərini və çatışmayan cəhətlərini görürlər. Bu reytinqlərdə iştirak etməklə digər universitetlərin mövqelərini öyrənir və strateji planlarını buna uyğun şəkildə qururlar. Bundan əlavə, hər bir universitetin müxtəlif beynəlxalq layihələri var ki, onlar vasitəsilə məzmunun yenilənməsi həyata keçirilir, sırf dayanıqlı inkişaf hədəfləri ilə bağlı yeni məzmunlar yaradılır. Digər məsələ odur ki, bu gün müəllimlərin iqlim dəyişiklikləri ilə bağlı maarifləndirilməsi çox vacibdir. Amma bu, müəyyən qədər uzun müddət tələb edə bilər. İnsanlarda kütləvi şəkildə təfəkkürün dəyişməsinə ehtiyac var. Hesab edirəm ki, biz bu problemlərin öhdəsindən gələ bilərik.

İqlim dəyişmələri ilə bağlı mühəndislərin, biznes rəhbərlərinin, əməliyyat mühəndislərinin yetişdirilməsi necə olmalıdır? Biz təhsil məzmunumuzu bu suallara uyğun yeniləməyə çalışırıq. Müxtəlif tərəflərin - sənaye sektorunun, iş dünyasının, dövlət orqanlarının bu məsələləri davamlı olaraq, birlikdə müzakirə etməsi, qərar verməsi və tətbiq etməsi vacibdir.

*- SDU dünyanın təhsil müəssisələrinin reytinq cədvəllərində hansı mövqeni tutur?*

- Sumqayıt Dövlət Universiteti bu il ilk dəfə olaraq, QS Avropa reytinqlərinə daxil olub. Biz QS reytinqlərində 483-cü, Qərbi Asiya reytinqlərində isə 31-ci yerdəyik. Qeyd edim ki, QS Avropa reytinqləri Avropada olan təxminən 6000 universitetin nəticələrinin qiymətləndirilməsindən sonra açıqlanır. Bu reytinqlərə Avropanın 700 universiteti daxil ola bilib. Azərbaycandan bu reytinqə 9 universitet daxil olub ki, onlardan biri SDU-dur.

*- Ali məktəblərin elmi-tədqiqat profilli müəssisələrə çevrilməsi prioritet məsələlərdəndir. Bu, universitet müəllimlərinin tədrislə bərabər, tədqiqatla məşğul olmasını da zəruri edir. Bu baxımdan SDU müəllimləri dərs keçməklə yanaşı, tədqiqat işləri də apara bilirlər? Ümumiyyətlə, dünyada onların elmi əsərlərinə istinad necədir?*

- Yaxşı sualdır. SDU-nun əsas hədəfi sənayenin ehtiyaclarına uyğun kadr hazırlığı həyata keçirməkdir. Əlbəttə ki, universitetin profesor-müəllim heyəti tədqiqatla məşğul olur və olmalıdır da. Amma qəbul etməliyik ki, SDU-nun gələcək 5 il üçün strateji inkişaf planındakı hədəfləri daha çox profesor-müəllim heyətinin təkmilləşdirilməsi, sənaye ilə əlaqələrin inkişafı, beynəlmiləlləşdirmə, dayanıqlı inkişaf, ömür boyu təhsillə bağlıdır. Biz tədqiqatlar edirik, amma real yanaşsaq, bizim gələcək 5 ildə tədqiqat universiteti olmaq kimi bir hədəfimiz yoxdur. Buna baxmayaraq, SDU tərəfindən tədqiqatı təşviq etmək üçün müəyyən təşviqlər həyata keçirilir. Bununla bağlı ilk dəfə olaraq, 2024-cü ildə bizim universitetə professor-müəllim heyətini tədqiqatlara cəlb edə bilməyimiz üçün büdcə ayrılıb. Eyni zamanda qeyd etmək lazımdır ki, son bir ildə SDU-nun beynəlxalq elmmetrik bazalarda göstəriciləri kifayət qədər yüksəlib. Məhz elə bu göstəricilərin hesabına beynəlxalq reytinqlərə daxil ola bilmişik. Reytinqlərə daxil olmaq üçün müəyyənləşdirilmiş minimal hədləri keçmək lazımdır. Bu mənada biz həm məqalələrin, həm də onlara istinadların sayının müəyyən qədər artdığını müşahidə edirik.

*- İstinadlar daha çox hansı istiqamətlər üzrə aparılmış tədqiqatlara aid olub?*

- SDU ənənəvi olaraq, bəzi sahələrdə daha təcrübəlidir. Bu, məsələn, kimya, kimya mühəndisliyi, energetika, riyaziyyat sahəsidir. Bu istiqamətlər üzrə həm çoxlu elmi məqalələrimiz var, həm də onlara istinadların sayı çoxdur.

*- Bu gün SDU-nun müəllimləri tələbələrinə müasir, beynəlxalq tələblərə uyğun dərs keçə bilirlər?*

- Universitet rəhbərliyi müəllimlər qarşısında belə bir məqsəd qoyub. Universitetə həm tədrisin məzmunun yenilənməsi kimi hədəflər qoyulub, həm də son bir ildə keyfiyyət təminatı sistemi tamamilə yenidən qurulub. Bu sistem özü müəllimin tələbəyə çatdıracağı məzmunu, onun keyfiyyətini, eləcə də tələbədən müəllimin keçdiyi dərsə olan münasibəti öyrənir. Yəni bizim hazırda çoxfunksiyalı monitorinq sistemimiz var. Buna uyğun olaraq, müəllimlərin qiymətləndirilməsi aparılır. Qiymətləndirilmə nəticəsində professor-müəllim heyətinin peşəkar inkişaf ehtiyaclarını görürük.

*- Bu ehtiyaclar nələrdən ibarətdir?*

- Ehtiyaclar çoxşaxəlidir. Bunlar daha çox qiymətləndirmə ilə bağlı yeni yanaşmaların tətbiqi, dərsin layihə əsasında keçirilməsi, tələbələrə bilik və bacarıqların öyrədilməsi üçün çalışmaların verilməsi, məzmunun, tədqiqat işlərinin sənaye ilə əlaqələndirilməsi, elmi rəhbərlərin sənayedən müəyyən olunması və s.-dir. Daha çox müəllimlərin tələbələrə yanaşması, onların ünsiyyət qabiliyyətinin, təqdimat etmə, eləcə də rəqəmsal bacarıqlarının inkişafına ehtiyac var. Bundan əlavə, SDU son 1 ildə gənc müəllimləri işə qəbul etməyə başlayıb. Eyni zamanda, sənaye sahəsində, ölkənin ən böyük şirkətlərində çalışan 25 nəfər hazırda universitetimizdə dərs deyir. Onların bəziləri rəhbər şəxslər, mühəndislərdir. Düşünürəm ki, bu, bizə yanaşmaları yeniləməkdə kömək edəcək.

*- Müəllimlər üçün sadaladığınız problemlər hansı səbəblərdən ortaya çıxır?*

- Bu problemlər ona görə yaranıb ki, müəllimlər uzun müddət dərs keçmə üçün ənənəvi üsullardan istifadə ediblər. Onların qarşılarına yenilənmə ehtiyacının olması ilə bağlı elə bir tələb də qoyulmayıb. Əslində, insan bir işi uzun müddət görəndə artıq onu başqa cür görmək çətinləşir. Eyni dərsi 20 il eyni cür keçən müəllimin qarşısında həm məzmunun yenilənməsi, həm də bu məzmunun tələbəyə çatdırılması üçün müxtəlif pedaqoji metodlardan istifadə ilə bağlı tələblər qoyanda müəyyən qədər çətinliklərimiz yaranır. Amma bu cür çətinliklərin əhatə dairəsi geniş deyil. Düşünürəm ki, tez bir zamanda onları da həll edə biləcəyik.

*- Bəs bunun üçün hansı yollardan istifadə edəcəksiniz? Planlaşdırdığınız təlimlər bu problemlərin həlli üçün yeganə çıxış ola bilər?*

- Təlimlərdən əlavə universitetə xaricdə təhsil almış gəncləri, eyni zamanda, sənaye sektorunda çalışan müəllimləri cəlb edirik. Düşünürəm ki, getdikcə yenilənmə baş verəcək.

*- Texnoloji yeniliklər sənayenin kadrlara olan ehtiyaclarını getdikcə dəyişdirir. Daha çox sənaye sektoru üçün kadr hazırlığı həyata keçirən bu universitetin məzunları hazırkı tələbata cavab verir?*

- SDU iş dünyası ilə əlaqələrini gücləndirir. İstər Sumqayıtda, istərsə regionlarda olan sənaye müəssisələri ilə sıx əlaqə yaradırıq və bunun nəticəsində sənaye sektorunun hazırkı ehtiyaclarını görürük. Biz kadrlarımızın sənaye sahəsinin tələbatlarına uyğun gəlməsi üçün çalışırıq. Bunu etmək üçün hazırda sənayenin ehtiyaclarını daha dərindən öyrənirik. Professor-müəllim heyəti tez-tez sənaye müəssisələrində, sənaye müəssisələrinin əməkdaşları universitetdə olur, birgə konfranslar, görüşlər keçiririk. Bu kimi görüşlər üniversitetlə sənaye müəssisələri arasında müəyyən güvən yaradır. İndiyə qədər bu sahədə, yəni üniversitet- sənaye müəssisələrinin əməkdaşlığında bir qədər problem olub. Sənayenin üniversitetlərə güvəninin artması üçün davamlı görüşlər, müzakirələr keçirilməlidir. Güvən formalaşandan sonra artıq daha böyük işlərə keçmək olar. Ona görə bizim "tez bir zamanda kadrları sənaye sektorunun tələbatlarına uyğunlaşdıracayıq" deməyimiz bir az vaxt tələb edəcək. Ən azı, bilirik ki, bu istiqamət üzrə düz yoldayıq.

*- Qeyd etdiniz ki, sənaye sektorunun kadrlara olan tələbatını öyrənirsiniz. İlkin nəticələr nələrdən ibarətdir? Sənaye sektorunun daha çox hansı kadrlara ehtiyacı var?*

- Bu tələbat müxtəlif istiqamətlər üzrədir: əməliyyatların idarəolunması, strateji idarəetmə, mühasibatlıq və s. kadrlara ehtiyac böyükdür. Əsas məsələ kadrların bilik və bacarıqlarının sənaye sahəsinin tələblərinə uyğunlaşdırmaqdır. Sənaye sektoru nəzəri bilikdən daha çox tətbiqi biliklərə malik olan, müasir təcrübələri mənimsəyən kadrların axtarışındadır. Ola bilsin ki, bizim tələbələrimizin çox yaxşı nəzəri bilikləri var, amma yeni istifadə olunan elektrik sistemləri, onların çertyojlarının qurulması, avtomatika sistemləri, müasir istehsal müəssisələrinin iş prinsipləri, istehsal müəssisələrində təhlükəsizliyin təşkili kimi məsələləri o qədər də əhatəli öyrənmirlər. Biz bu ehtiyacları görürük və buna görə də hər il məzmunun bir hissəsini yeniləməyi planlaşdırırıq.

*- Tələbələrinizə praktiki biliklər öyrətmək baxımından çətinlikləriniz var?*

- SDU-da tələbələrin təcrübə keçməsi ilə bağlı imkanlar genişdir. Sumqayıtın demək olar ki, bütün sənaye müəssisələri, banklar, böyük market şəbəkələri ilə əlaqəmiz var. Nəzərə alaq ki, SDU yalnız sənaye sahəsi üçün kadrlar yetişdirmir, o, həm də klassik universitetdir. Burada iqtisadiyyat, idarəeetmə, mühəndislik, riyaziyyat, təbiət elmləri, filologiya, tarix, coğrafiya fakültələri var. Bu baxımdan biz bütün müəssisələrlə əlaqə yaradırıq. Artıq keçən ildən başlayaraq, tələbələrimiz ən yaxşı sənaye müəssisələrində təcrübə keçirlər. Biz bu işə çox ciddi önəm veririk, onların təcrübələrinin təşkilini davamlı olaraq nəzarətdə saxlayırıq. Bu, demək olar ki, gördüyümüz ən yaxşı işlərdəndir. Ola bilər ki, məzunlarımızın praktiki biliklərlə bağlı müəyyən çatışmazlığı olsun. Amma yaxşı nəzəri biliklərə malik olduğu halda, yaxşı da təcrübə keçərlərsə, müəyyən müddətdən sonra sənayeyə uyğunlaşa bilərlər. Tələbələrimizin bir hissəsi hətta təcrübədən sonra müəssisədə işləmək təklifi alır.

**İlhamə İSABALAYEVA**

# “QİYMƏTLƏNDİRMƏ BİR HESABAT DÖVRÜDÜR”

## Afət Süleymanova: “Fəaliyyətimin əhəmiyyətini elə təqdim etdilər ki, həyat hesabatımı yüngülləşdirdilər”




**Afət Süleymanova Elm və təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsinin Qiymətləndirmə siyasəti sektorunun aparıcı məsləhətçisidir. Artıq uzun illərdir ki, Məktəbəqədər və ümumi təhsil siyasəti şöbəsində qiymətləndirmə siyasətinin müəyyənləşdirilməsində iştirak edir. Bu günlərdə 60 yaşını qeyd edən təhsil mütəxəssisi elm və təhsil naziri Emin Əmrullayevin əmri ilə “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunub.**

**“Azərbaycan müəllimi” qəzetinə müsahibəsində yubilyar, sadəcə əməyinə verilən qiymətdən yox, həm də birbaşa iştirakçısı olduğu əsas təhsil hadisələrindən danışıb.**

*- 60 il necə keçdi? Həqiqətən bir göz qırpımında keçdi, yoxsa...*

- Çox həyəcanlı idi... 2 gündür bu 60 il barədə düşünür, ömrün hesabatını aparıram. Özünüqiymətləndirmə bir hesabat dövrüdür sanki, yarım əsrdən çox yaşamış, ömrünün çoxunu çalışmış bir insanın hesabatıdır. Yanlışlarım nə oldu, doğrularım nədir? İnsan düşünməyə bilmir. Özünütənqid, özünütəqdir prosesindən keçib gəlib çıxmışam 60-a.

*- Bu 60 ilin hesabatını çıxartmağınız 60 yaşın təsiridir, yoxsa qiymətləndirmə sektorunda fəaliyyətinizlə bağlıdır?*

- Təbiətimdən irəli gəlir. Hər axşam öz köşəmə çəkiləndə günün nəticələrini düşünürəm. Hansısa işimə görə özümü təqdir edir, başqa bir işimə görə isə danlayıram, “Bu yaşında bu səhvi necə edə bilərdin?”, - dediyim vaxtlar belə olub.

### “Əmək fəaliyyətinə müəllimliklə başladım”

*- Olduğunuz yerə müəllimlikdən gəlmisiniz. Təcrübəyə, əmək fəaliyyətinə müəllimlikdən başlamısınız...*

- Ondan daha əvvəl başlamışam. 1982-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin axşam şöbəsinə daxil oldum. Bilirsiniz ki, axşam şöbəsində oxuyanların işləməsi şərt idi. Müxtəlif yerlərdə katibə, inzibati işləri idarə edən, kadrlar şöbəsinin inspektoru işlədim. Analıqla bağlı bir müddət işləmədim və 1993-cü ildə əmək fəaliyyətinə 123 nömrəli məktəbdə müəllimliklə başladım.

### “Müəllim qiymətləndirilməsi bir tədqiqatdır”

*- Yəni, bugünkü yerə yol ordan başladı - müəllimlikdən. 31 il əvvəl siz yola düşəndə başqa müəllim vardı, bu gün qarşımızda fərqli bir müəllim durur. Müəllimin qiymətləndirilməsindən tutmuş müəllimin özünün qiymətləndirməsinə qədər hər şey dəyişib. 31 ildir içərisində olduğunuz, müşahidə etdiyiniz, iştirakçısına çevrildiyiniz bu prosesi necə qiymətləndirirsiniz?*

- Amerikada “Kurikulumun atası” adını almış Ralf Tayler özü-özünə opponentlik edərək yazır: Oxucu, düşünə bilərsən ki, sənin verdiyin prinsipləri mənim müəllimim 20 il əvvəl heç oxumadan gözəl müəllim idi. Amma mən anadan müəllim doğulanlardan danışmıram. Həqiqətən də belədir, müəllim olmaq üçün doğulanlar var. Məhz bunu nəzərə alaraq tələbələrimə həmişə tövsiyəm bu olur ki, müəllimliyi sevmirlərsə, seçməsinlər. 2018-ci ildən Xəzər Universitetində müəllimlik fəaliyyətimi davam etdirirəm. Pedaqogika üzrə fəlsəfə doktoruyam, yaxın günlərdə elmlər doktorluğunu da müdafiə edəcəyəm. Bunu deyərkən onu nəzərə alıram ki, bir müəllim birdən-birə 30-40 fərdin taleyini həll edir, ya gələcəyini qurur, ya da dağıdır. “Əvvəllər müəllimlər yaxşı idi, indi pis”, - fikri ilə razılaşmıram. Bu, insanın daşıdığı dəyərlərlə çox bağlıdır. Ümumtəhsil məktəblərində tədris edilən məktəb proqamları 5 ildən bir dəyişir və ya təkmilləşdirilir. Bunu niyə edirik? Çünki ətrafda hər şey sürətlə dəyişir. Texnologiya inkişaf edir. Bu gün aktual olan 5 il sonra unudula bilir. Elmi-tədqiqat aparanda belə araşdırdığınız mənbələr 10 il əvvəl yazılıbsa, ona əsaslanmaq aktual sayılmır. Son 5 ilin elmi-tədqiqatlarına istinad tövsiyə olunur. Dünən müəllimlərə deyirdik ki, dərsdə İKT-dən istifadə edin, kompüterdə işləyin, internetdən faydalanın, bu gün dünya süni intellektdən istifadə edən müəllimlərdən danışır. Özünü inkişaf etdirməyən bir müəllim onu qiymətləndirmə məcburiyyətində buraxır, təhsil üçün məsuliyyət daşıyan tərəfləri onu yoxlamağa məcbur edir.

Bu gün sinfə 50-ci ilin dərsliyi ilə girmək mümkündürmü? H.Zərdabi deyir ki, şagirdini cəmiyyətə hazırlamayan məktəb kimə lazımdır? Məktəb qapısından çıxacaq şagird “Mən necə edim?” - sualı ilə baş-başa qalacaqsa, o məktəbin faydası varmı? Məktəbdəykən uşağa süni intellektin hansı imkanları olduğunu, onun köməyindən istifadə edib məlumatlar əldə etməyi, harada və necə tətbiq edəcəyini öyrətməliyik.Müəllim qiymətləndirilməsi onu yoxlayıb “5” və ya “2” verilməsi deyil, bu bir tədqiqatdır. Müəllimin fənn biliyi, psixoloji yanaşmalarla bağlı variantları dəyərləndirilir. Bu tədqiqatlar müəllimlərdə nəyin çatışmadığını, onların nəyə ehtiyacı olduğunu deyir. Biz ali təhsil müəssisələrində müəllim hazırlığında həmin boşluqları aradan qaldırmağa çalışırıq.

### “Şagird mətni oxuyur, hissələrini düzgün müəyyənləşdirirsə təhlil bacarığı var”

*- Müəllimin qiymətləndirilməsindən danışırıq, müəllim özü də qiymətləndirəndir. Müəllim hansı bucaqdan baxsın ki, verdiyi qiymət ədalətli və real olsun.*

- Nazirlər Kabineti “Ümumtəhsilin dövlət standartları”nı təsdiq edib. Təhsil icmasının tərtib etdiyi, işçi qruplarda dəfələrlə yoxlanılaraq təsdiq olunan həmin standartlar dövlətin tələbi, bir növ verdiyi sifarişdir. Burada dövlətin yetişdiriləcək vətəndaşlarla bağlı gözləntiləri əksini tapıb. Burada müəyyən edilib ki, vətəndaş hansı bilik, bacarıq, vərdiş və dəyərlərə sahib olmalıdır. Bu, dünyada da belədir. Hər fənn üzrə 4-5 vacib bacarıq təyin edilir və gözlənilən bu nəticə həmin fənnin konstitutsiyasıdır. Fənn kurikulumları məhz bu 4-5 maddədən ibarət standartlardan qaynaqlanır. Müəllim tədris zamanı bunu reallaşdırmalıdır.

Alt standartlar qiymətləndirmə üçün əsas meyarları təşkil edir. Onların özlərinin ciddi elmi bazası var. Məsələn, şagirdə oxuduğu mətni hissələrə ayırmaq tapşırılıb. Deyə bilərsiniz ki, burda nə var ki, qiymətləndirsin? Məsələ ondadır ki, biz müəllimlərə ali təhsil müəssisələrində, əlavə təhsil səviyyələrində, ixtisasartırmada öyrədirik ki, şagird mətni oxuyur və hissələrini düzgün müəyyənləşdirirsə, deməli həmin şagirdin təhlil bacarığı var. Bu alt standart Blum taksonomiyasının IV - yəni təhlil səviyyəsindədir. Dövlət sifarişi nə qədər verilibsə, uşaq o qədər öyrədilməli, qiymətləndirilmə də o səviyyədə aparılmalıdır. Təbii ki, burada söhbət xüsusi istedadlı uşaqlardan getmir. Qeyri-adi istedadlar var ki, onlar 45 dəqiqəlik dərsi 7 dəqiqədə yerinə yetirir və belə uşaqların istedadının inkişaf etdirilməsinə şərait yaratmaq lazımdır.

Ümumi yaş səviyyəsində ayaqlaşa bilməyən uşaqlarla isə təhlil deyil, tətbiq səviyyəsində iş apara bilərik. Təhlil səviyyəsində iş aparan şagird “əla” qiymətləndirilirsə, tətbiq səviyyəsində iş aparan uşağı “yaxşı” qiymətləndirə bilərik. Yəni çalışır, nəticəsi var, amma üzərində hələ iş aparılmalıdır ki, müəyyən edilən standart səviyyəsində tələbə cavab versin.

Qiymətləndirmə özü ciddi nəzəri-elmi bazaya söykənir və biz universitetlərdə bunu gələcək müəllimlərimizə öyrədirik. Xəzər Universitetində uzun müddətdir ki, həm Azərbaycan, həm də ingilis dillərində “Kurikulum və qiymətləndirmə strategiyaları”nı tədris edirəm. Hesab edirəm ki, bunları bilmədən müəllim ustalığına sahib olmaq mümkün deyil.



### “Öyrənmə zəif olduğuna görə əldə edilən bilik tez itir”

*- Müşahidələrimiz göstərir ki, kurikulum müəllimlərin və müəllimliyə namizədlərin ən çox çətinlik çəkdiyi sahədir. Müasir tədris proqramlarında müəllimlərə çətin görünən nədir?*

- Anlayan müəllimlər var. Bir çox müəllim baxış bucaqlarını dəyişməyə nail olub, real, konstruktivist, mütərəqqi müəllim olublar. Kim ki, müəllimindən gördüyünü tətbiq etməklə kifayətlənir, kurikulumun mahiyyətini dərk etməyəcək. Az qala 20 il olur ki, yeni fənn kurikulumları tətbiq olunur. Məsələ bundadır ki, insanın təfəkküründən, inancından başlamaq lazımdır. Şagird oxuyub anladığının 50 faizini elə həmin il, 80 faizini növbəti il unudur. Bunu alimlər araşdırıblar. Çünki insan beyninin imkanları hüdudsuz deyil. Unudulmaması üçün müəllim nəyi öyrətməlidir? Blum taksonomiyasında 6 səviyyə - bilmə, anlama, tətbiq, təhlil, sintez, dəyərləndirmə nəzərdə tutulub. Gəlin görək, dərsdə nə baş verir, biz necə öyrədirik? Müəllim şagirdə tapşırıq verir, “Oxu, gəl danılş”,- deyir. “Gözəl danışdın”, - deyib əla qiymətləndirir. Bu öyrənmə idrak fəaliyyətinin ən zəif səviyyəsidir. Yəni dərs bilmə və yadda saxlamaqla məhdudlaşdı, müəllim uşağın beynini ən aşağı səviyyədə işlətdi, ona daha yuxarı səviyyədə çalışmaq imkanı vermədi. Öyrənmə zəif olduğuna görə əldə edilən bilik tez itir. Ya da müəllim sual verir, “izah et”, “şərh et” tələbi qoyur və bununla şagirdin mövzunu anlamasını da təmin edir. Deməli, bununla yalnız ikinci səviyyəyə qalxdı. Nadir hallarda şagirdlərə tapşırıqları yerinə yetirmək tapşırılır, onu da Azərbaycan dili, riyaziyyat, kimya kimi fənlərdə tətbiq səviyyəsinə qalxa bilir, uşağın beynini idrak fəaliyyətinin ən aşağı səviyyələrində çalışdırır. Dünyada özünü doğruldan müasir təcrübə isə deyir ki, uşaq edərək öyrənəcək. Ona dərs danışma, danışacağın məsələni problemləşdir, böyük bir açıq suala çevir. Açıq suala cavab tapa bilmək üçün bu sualın konkret cavabının əksini tapmadığı məlumat mənbələrini göstər. Şagird qoyulan suala ancaq o vaxt cavab verə biləcək ki, mənbələri oxuyacaq, anlayacaq, təhlil edəcək, yeni əldə etdiyi məlumatları sintez edib həmin sualın cavabını tapacaq, məsələni həll, ideyanı konstruksiya edəcək. Müasir təhsil bunu istəyir. Ona görə də beynimizi bir düşüncə tərzindən başqa bir öyrənmə yanaşmasına dəyişməliyik. Esensializm təhsil fəlsəfəsindən konstruktivizm, proqressivizm təhsil fəlsəfəsinə, mühafizəkar bir baxışdan, mütərəqqi bir baxışa keçməliyik. Bu da müəllimlərin təhsillə bağlı fəlsəfəsinin kökündən dəyişməsi deməkdir.

Müəllim təhsilinin məzmununda birinci mərhələ budur: özünütəyin. Müəllim hər şeydən öncə peşəkar mənliyini, kimliyini təyin edəcək. Bunun üçün təhsil fəlsəfələri, təhsilin ayrı-ayrı məsələlərinə baxış bucaqlarının, dünyada gedən proseslərlə bu baxış bucaqlarından hansının ayaqlaşdığını müəyyənləşdirməyə imkan verən proqram var. Həmin proqramın köməyi ilə müəllim özünü qiymətləndirir, tanıyır və inkişaf etdirir. Cəmi 3 il aktual olacaq informasiyanı uşağa əzbərlədərək mənimsətmək nə qədər doğrudur. Yaxşı olmazmı ki, biz uşaqlara hər gün bazalara daxil olaraq öz məlumatlarını yeniləməyi öyrədək?!

*- Müəllimin özünütəyinetməsini sertifikatlaşdırma ilə müvafiq qurumlar etmirmi?*

- Yox, sertifikatlaşdırma müəllimin mövcud vəziyyətini, peşəkarlığını müxtəlif bucaqlardan təyin edir. Özünütəyini kurikulum kurslarında keçirik, universitetlərdə tədris edilən fənn kurikulumları proqramlarında öyrədirik.

### “Şagirdlərini ayırd edib ona uyğun tapşırığı vermək sinifdə müəllimin işidir”

*- Günümüzdə istər müəllimlər, istər şagirdlərin istifadəsi üçün çoxlu vəsaitlər hazırlanır. “Müasir dərsdə müəllimə dərslik lazım deyil”, - fikrinin gücləndiyi bir dövrdə bu qədər çox vəsaitin hazırlanmasına ehtiyac varmı?*

- Yenə gəldik müəllimlərin peşəkarlıq səviyyəsinə. Elə ölkələr var ki, 5-10 cür dərslik var. Ayrı-ayrı nəşriyyatların hazırladığı dərsliklərdən hansından istifadə edəcəyinə məktəb qərar verir. Yaxud hamısını araşdırıb illik planlaşmasını qurur və özlərinin resurslarını seçirlər. Nəinki regionlardakı məktəblərimiz, hətta məktəbdəki “a” sinfi ilə “b” sinfində belə sosial mühit, şagirdlərin tərkibi fərqlidir. Ona görə də müəllim nədən, necə istifadə edəcəyinə özü qərar verməlidir. Bir dərsliyi olduğu kimi tətbiq etmək lazım deyil. Dərsliklər də, metodik vəsaitlər də tövsiyə xarakterlidir. Məsələn, valideyn deyir müəllim çox tapşırıq verir, müəllim deyir dərslikdə olanları verir. Müəllimlərə təlimlərdə deyirik ki, dərslikdə, tutaq ki, 20 tapşırıq verilibsə, hamısı bir şagird üçün nəzərdə tutulmayıb. Müəllim onu şagirdlərinin səviyyəsinə uyğun ayırmalıdır. Tapşırıq var ki, şagird gördüyünü yaxşı dərk etdiyi üçündür, vizuallaşma imkanları var. Elə tapşırıq var ki, sxemlərlə, qrafiklərlə tərtib olunub, məntiqi təfəkkürü iti olan uşaqlar buradakı ismarıcı anlayar və məsələni daha yaxşı həll edib mövzunu dərk edər. Şagirdlərini ayırd edib ona uyğun tapşırığı vermək sinifdə müəllimin işidir.

### “Topladığımız təcrübələri gənclərə ötürməliyik”

*- Qabaqcıl təhsil təcrübələrini öyrənmək məqsədilə müxtəlif ölkələrdə olmusunuz. Maraqlıdır ki, hansı ölkənin təhsili sizi təəccübləndirib və ya heyrətləndirib?*

- İsraildə təhsildə sahibkarlıq mövzusunda təcrübədə olduq. Onlar deyir ki, məqsədimiz məktəbdə sahibkarlar yetişdirməkdir. Şagird məktəbi bitirəndən sonra “Harada işləyim?”, - deyə soruşmasın, iş qurub əlavə 5 nəfəri də işlə təmin etsin. İqtisadiyyat məktəbinə getdik, kənd təsərrüfatı üzrə ixtisaslaşmış məktəbdə şagirdlərin nəticələri heyrətləndirdi. Mən hansı meyvə-tərəvəzləri yetişdirdiklərini soruşdum, onlar mənə ədviyyatlar hazırlamalarından danışdılar. Uşaqlar məktəbdə ədvaların kosmetoloji məqsədlərlə doğru istifadəsini öyrənir, məhsullar yaradır və həmin məhsullarla dünya bazarına çıxıb, gəlir əldə edirlər. Belə maraqlı təcrübələrlə çox qarşılaşdım. Hər getdiyimiz ölkədən hesabatlarla qayıtdıq. Yeni təcrübələr, onların üstünlükləri, riskləri, Azərbaycan məktəbinə, icmasına bunları tətbiq etməyin mümkünlüyü ilə bağlı hesabatlar verirdik. Artıq bu işə gəncləri yönləndiririk. Biz isə topladığımız təcrübələri ölkədəki gənclərə ötürməliyik. Bunun üçün Xəzər Universiteti çox gözəl platformadır. Burada gənc müəllimlərin yetişməsinə töhfə verə bilirəm.

*- Təhsilə verdiyiniz töhfə dəyərləndirilir...*

- Elədir. Başda nazirimiz olmaqla qiymətləndirən hər kəsə təşəkkür edirəm. Çox gözəl bir tədbir təşkil edərək nazirliyin kollektivi məni təbrik etdi. Aparat rəhbəri Mətin Kərimli həmin tədbirdə rəhbərliyi təmsil etdi, onların sözünü, təbrikini kollektivin qarşısında çatdırdı. Bu cür dəyərləndirmə insana təsir edir, müsbət emosiyalar ötürür. Fəaliyyətimin əhəmiyyətini elə təqdim etdilər ki, həyat hesabatımı yüngülləşdirdilər.

**Ruhiyyə DAŞSALAHLI**
**FOTO: Kənan QAFAROV**

COP29
Baku
Azerbaijan
UN CLIMATE CHANGE CONFERENCE

**2024-cü ildə Azərbaycanda baş tutmuş COP29 konfransı iqlim dəyişikliyi ilə mübarizədə tarixi hadisə kimi yadda qaldı. Azərbaycan bu tədbirə ev sahibliyi edərək, qlobal səviyyədə mövqeyini möhkəmləndirdi və iqlim dəyişikliyi ilə mübarizədə öz töhfəsini ortaya qoydu. Konfrans təkcə dünya üçün deyil, həm də ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən bir platforma oldu.**




# Paytaxt məktəblilərinin YAŞIL DÜNYASI

COP29-un əsas məqsədi Paris Sazişi çərçivəsində iqlim dəyişikliyi ilə bağlı öhdəliklərin həyata keçirilməsini sürətləndirmək idi. Azərbaycan bu konfransa ev sahibliyi edərək, dünya ölkələrini bir araya gətirdi və qlobal əməkdaşlığın gücləndirilməsinə yardım etdi.

- **İqlim maliyyəsinin artırılması:** COP29 çərçivəsində inkişaf etmiş ölkələrdən az inkişaf etmiş və iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrə maliyyə dəstəyi mexanizmləri müzakirə edildi. Bu təşəbbüs, xüsusilə yoxsul ölkələrin davamlı enerji layihələrinə və iqlim dayanıqlılığına sərmayə cəlb etdirməsinə imkan yaratdı.

- **Texnologiya və bilik mübadiləsi:** Azərbaycan tədbir zamanı qlobal tərəfdaşları ilə bərabər, yaşıl texnologiyaların inkişafı və tətbiqi sahəsində əməkdaşlıq imkanlarını genişləndirdi. Bu isə dünyanın müxtəlif bölgələrində iqlim dəyişikliklərinin təsirlərini azaltmağa yönəlmiş innovativ həllərin yayılmasına səbəb oldu.

- **Paris Sazişi hədəflərinə nail olmaq:** İstixana qazı tullantılarının azaldılması üzrə konkret planların qəbulu və onların monitorinq mexanizmləri müəyyən edildi. Bu isə qlobal səviyyədə iqlim məqsədlərinə doğru əhəmiyyətli bir addım oldu.

Konfrans Azərbaycanın həm beynəlxalq arenadakı nüfuzunu, həm də iqtisadi və ekoloji sahədə gücünü göstərdi.

- **Azərbaycanın beynəlxalq nüfuzu:** Belə bir mötəbər tədbirə ev sahibliyi etməklə, Azərbaycan qlobal səviyyədə etibarlı tərəfdaş və iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirakçı kimi tanındı. Bu, ölkənin xarici siyasətində və beynəlxalq əməkdaşlıq platformalarında mövqeyini gücləndirdi.





- **"Yaşıl" iqtisadiyyatın inkişafı:** COP29 çərçivəsində Azərbaycan hökuməti bir sıra beynəlxalq investorlarla əməkdaşlıq müqavilələri imzaladı. Bu layihələr arasında külək və günəş enerjisi parklarının tikintisi, eləcə də ekoloji təmiz texnologiyaların tətbiqi kimi təşəbbüslər yer aldı.

- **Milli ekoloji strategiyanın təkmilləşdirilməsi:** Konfransda qəbul edilən qərarlar Azərbaycanın iqlim strategiyasının yenidən qurulmasına və daha səmərəli tədbirlərin həyata keçirilməsinə şərait yaratdı. Xüsusilə su resurslarının idarə edilməsi, meşə ərazilərinin genişləndirilməsi və tullantıların idarə olunması sahəsində milli proqramların icrasına təkan verildi.

- **Turizm və iqtisadi faydalar:** Tədbir zamanı minlərlə xarici qonağın ölkəyə səfəri Azərbaycanın turizm sektoruna birbaşa təsir etdi. Bu isə yerli iqtisadiyyatın canlanmasına, xüsusilə xidmət sahəsində inkişafın sürətlənməsinə öz töhfəsini verəcək.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Tədbirlər Planına əsasən, 49 nömrəli "İntellekt" məktəb-liseyin pedaqoji kollektivi də bu çağırışa təhsil müəssisəsində təşkil olunan müxtəlif tədbirlərlə öz töhfəsini verib. Belə ki, plana əsasən, məktəbdə mövzuya uyğun maarifləndirici dərslər, sərgilər, stendlər, müzakirələr, diskussiyalar, aksiyalar, ekologiya aylığı və s. keçirilib.

"Təbiət və poeziya" movzusunda şeir müsabiqəsi, ekologiya aylığı çərçivəsində mövzuya aid əl işlərindən ibarət stendlər, nümunəvi və maarifləndirici dərslər keçrilib və "Azərbaycanın COP29-a sədrliyi qlobal şimal və cənub arasında körpüdür" mövzusunda, "Dünyamızı gözəlləşdirək", "Ətraf mühiti qoruyaq" şüarları altında müzakirələr aparılıb, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "COP29-a ev sahibliyi etmək nə üçün əhəmiyyətlidir?" adlı diskussiyalar təşkil edilib."Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində məktəbdə təşkil edilən "Təbiətdən incəsənətə" adlı sərgilər keçirilib, şagirdlər hazırladıqları əl işləri və çəkdikləri şəkilləri iştirakçılara təqdim ediblər. Şagirdlər məktəbin qarşısındakı boş ərazidə ağacəkmə aksiyasında iştirak etməklə, dibçəklərdə güllər əkməklə rəmzi olaraq dünyamızı yaşıllaşdırmaq naminə öz töhfələrini veriblər.

Məktəbin şagirdləri digər təşkilatlar tərəfindən mövzu ilə bağlı təşkil edilmiş tədbirlərdə də fəal iştirak ediblər. Belə ki, Nizami Kino Mərkəzində Nəsimi rayonu 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Dünya bizim evimizdir" adlı tədbirdə tullantılardan və əl işlərindən hazırlanan sərgidə məktəbin şagirdi Yusif Hüseynli II yerə layiq görülüb.

# COP29: Azərbaycanın qlobal iqlim dəyişikliklərinə töhfəsi



COP29 iqlim dəyişiklikləri ilə bağlı dünyada ən əhəmiyyətli tədbirlərdən biridir. Bu beynəlxalq konfrans iqlim problemlərinin qlobal miqyasda müzakirəsi, həlli yollarının axtarışı və beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün unikal bir platformadır. Konfransın Bakıda keçirilməsi Azərbaycanın bu mövzuya verdiyi dəyərin, qlobal iqlim gündəminə töhfə vermək istəyinin və ətraf mühitin qorunması sahəsində möhkəm iradəsinin bir göstəricisidir. Azərbaycan neft-qaz istehsalı ilə tanınsa da, ölkə dayanıqlı inkişaf prinsiplərini rəhbər tutaraq "yaşıl" iqtisadiyyata keçid və alternativ enerji mənbələrinin inkişafı istiqamətində mühüm addımlar atır. COP29 Azərbaycanın beynəlxalq səviyyədə iqlim liderliyi mövqeyini möhkəmləndirməklə yanaşı, həm də yerli və regional səviyyədə ətraf mühit problemlərinin həllinə də diqqəti yönəldib.



### "Yaşıl" təhsil: Gələcək nəsillər üçün dayanıqlı düşüncə

COP29-un Azərbaycanda təşkil edilməsi təhsil sahəsində yeni imkanlar yaradır. İqlim dəyişiklikləri yalnız ekoloji və iqtisadi məsələ deyil, həm də təhsil sahəsində fundamental mövzudur. Gənc nəsillərin iqlim mövzularında maarifləndirilməsi və onların ekoloji şüurunun inkişaf etdirilməsi yaşıl və dayanıqlı gələcəyin qurulmasında həlledici rol oynayır.

Məktəb proqramlarına iqlim dəyişikliyi, enerji səmərəliliyi, tullantıların idarə olunması və biomüxtəlifliyin qorunması kimi mövzuların inteqrasiya edilməsi zərurəti yaranır. Bu, uşaqların təhsilin ilk pilləsindən təbiəti qorumaq üçün məsuliyyət hissi ilə yetişməsinə imkan yaradacaq. Bununla yanaşı, məktəblərdə və ali təhsil müəssisələrində praktik biliklərə əsaslanan yaşıl laboratoriyalar, iqlim dəyişikliyi simulyasiya proqramları və ətraf mühitin monitorinqinə dair layihələrin təşkil edilməsi məqsədəmüvafiqdir.

Ali təhsil müəssisələri isə iqlim, bərpa olunan enerji texnologiyaları və ekoloji idarəetmə sahələri üzrə araşdırmaların genişləndirilməsində mühüm rol oynamalıdır. Xüsusilə Azərbaycan universitetlərinin beynəlxalq iqlim tədqiqat mərkəzləri ilə əməkdaşlıq edərək iqlim dəyişikliklərinə qarşı innovativ həllər hazırlaması vacibdir.

### İqlim dəyişikliklərinin geniş təbliği və cəmiyyətin maarifləndirilməsi

COP29 həm də iqlim dəyişikliyi mövzusunda geniş ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi üçün mühüm fürsətdir. Media vasitəsilə enerji səmərəliliyinin əhəmiyyəti, karbon izinin azaldılması və ekoloji təmiz həyat tərzinin üstünlükləri haqqında maarifləndirici kampaniyalar aparılmalıdır.

Eyni zamanda sosial şəbəkələr və rəqəmsal platformalar vasitəsilə cəmiyyətin bütün təbəqələrinə xitab edən interaktiv layihələr həyata keçirilməlidir. Məsələn, ev təsərrüfatları və müəssisələr üçün karbon emissiyasını azaltmaq üzrə sadə təlimatlar və videomateriallar hazırlanmalıdır. Şəhər ictimaiyyətini cəlb etmək üçün ağacəkmə kampaniyaları, ictimai yerlərdə təmiz enerji layihələrinin təqdimatı və sərgilər təşkil edilməlidir.

### Elm və texnologiya: İqlim dəyişikliyinə qarşı innovativ yanaşmalar

İqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizədə elm və texnologiyanın rolu əvəzolunmazdır. Azərbaycanda COP29 çərçivəsində iqlim texnologiyaları sərgiləri, beynəlxalq tədqiqat forumları və mütəxəssislər arasında fikir mübadiləsi təşkil edilə bilər. Bu tədbirlər bərpa olunan enerji mənbələri, karbonun tutulması və saxlanılması texnologiyaları, habelə iqlim dəyişikliklərinə uyğunlaşma ilə bağlı innovativ həllərin inkişaf etdirilməsinə şərait yaradacaq.

Bundan əlavə, ölkədə qabaqcıl texnologiyaların tətbiqi ilə "yaşıl" şəhərlər konsepsiyasının reallaşdırılması məqsədəuyğundur. Bakı və digər böyük şəhərlərdə ictimai nəqliyyatın karbon emissiyasını azaldacaq layihələrə, enerji səmərəli tikililərin genişləndirilməsinə və ağıllı şəhər texnologiyalarının tətbiqinə daha çox diqqət yetirilməlidir.

### Azərbaycanın qlobal iqlim səhnəsində mövqeyi

COP29-un Bakıda keçirilməsi Azərbaycanın ekoloji və iqtisadi inkişafında yeni mərhələni işarələyir. Bu tədbir vasitəsilə iqlim dəyişiklikləri ilə bağlı qlobal əməkdaşlıq güclənəcək, eyni zamanda ölkəmizin beynəlxalq səviyyədə dayanıqlı inkişaf təşəbbüslərinə töhfəsi artacaq. Təhsil sahəsində atılacaq addımlar, yaşıl düşüncənin formalaşdırılması və elmin inkişafı vasitəsilə Azərbaycan cəmiyyəti iqlim dəyişikliyinə qarşı mübarizədə daha məsuliyyətli və aktiv bir rol oynayacaq. COP29 həm ekoloji, həm də iqtisadi baxımdan Azərbaycanın gələcəyini formalaşdırmaq üçün geniş imkanlar yaradır.

**Sehran SƏFƏROV,**
**Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı mütəxəssisi**

# Ən yaxşı "yaşıl" sinfin müəllimi

# Təmiz ətraf mühitdə yaşamağın faydasını əyani yollarla təbliğ edirik



Gəncə şəhərinin N.Rəfibəyli adına 43 nömrəli tam orta məktəbi Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirdiyi müsabiqədə "Ən yaxşı yaşıl sinif" nominasiyası üzrə birinci yerə layiq görülüb.

"Azərbaycan müəllimi" regionun ən yaxşı "yaşıl" sinfindən reportaj hazırlayıb.

Sinfin qurucusu, biologiya müəllimi Mehriban Hüseynlinin sözlərinə görə, əsas məqsədi dərsləri əyani nümunələrlə keçmək, şagirdlərin biologiya fənninə marağını artırmaq, onlar arasından gələcəyin həkimlərinin, bioloqlarının yetişdirilməsinə nail olmaqdır.

Mehriban müəllim uzun illərdir şagirdlərin ixtiyarında olan bu sinfin hər il zənginləşdirildiyini, "yaşıl dünya" naminə bir çox işlər həyata keçirdiklərini deyir: "Ekoloji mühitin yaxşılaşdırılmasını, təmiz ətraf mühitdə yaşamağın sağlamlığa müsbət təsir etdiyini, onun faydasını əyani yollarla təbliğ edirik. Eyni zamanda, şagirdlər "yaşıl dünya" ilə əlaqədar təqdimatlar hazırlayır, onlar arasında rəsm müsabiqələri keçirir, "açıq dərs"lər, maarifləndirici seminarlar, ekoloji ekskursiyalar təşkil edirik".

Şagirdlərinin bilik və bacarıqlarını inkişaf etdirməyə çalışan biologiya müəllimi onların da "yaşıl" sinfə töhfə verdiklərini bildirir. Belə ki, sinifdəki bir çox nümunələr - herbarilər, tablolar, dərman bitkiləri və s. şagirdlərin əməyinin nəticəsidir.

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# NOBEL MÜKAFATI LAUREATLARI COP29-UN ƏHƏMİYYƏTİNDƏN DANIŞDILAR

**Noyabrın 27-də Azərbaycan Texniki Universitetində (AzTU) COP29 çərçivəsində RİSK 2024 "İqlim dəyişikliklərinin təbii və texnoloji risklərinin minimumlaşdırılmasında innovasiyalar: metodologiya və təcrübə" adlı 6-cı Avrasiya konfransı başlayıb. Konfransda Nobel sülh mükafatı laureatları professor Sviatoslav Timashev və professor Elena Nikitina, eləcə də dünyanın müxtəlif ölkələrindən 100-ə yaxın alim iştirak edib.**





Açılış mərasimində çıxış edən AzTU-nun rektoru professor Vilayət Vəliyev COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyəti, bu çərçivədə keçirilən tətbirlərdə müzakirə olunan məsələlərin önəmindən danışıb. Rektor BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə olaraq AzTU-nun "Dayanıqlı Universitet" kontekstində yeni layihənin icrasına başlanacağını bildirib.

Qeyd edib ki, bərpa olunan enerji sahəsində həyata keçiriləcək layihə AzTU-nun bir hektar ərazidə yaradacağı Yaşıl Texnologiya Parkının yaşıl enerji ilə təmin olunmasına aiddir. Sözügedən Parkın ərazisindəki tikililərin damında ümumi gücü 1,5 meqavat olan günəş panelləri quraşdırılacaq. Panellər elektrik enerjisi istehsal etməklə yanaşı, təbii işıqlandırmaya imkan verən pəncərə rolunu da oyanacaq. Layihənin həyata keçməsi ilə AzTU avtonom olaraq öz kampusunun ehtiyaclarını yaşıl enerji ilə təmin etməklə yanaşı, ətrafdakı obyektləri da enerji ilə təchiz edəcək.

Daha sonra çıxış edən Nobel sülh mükafatı laureatları professor Sviatoslav Timashev və professor Elena Nikitina, İstanbul Texniki Universitetinin professoru Ahmet Duran Şahin konfransın əsas təşkilatçısı və sədri sponsoru olan "AMIR Technical Services" beynəlxalq şirkətinin direktoru professor Vüqar Əliyev burada müzakirə olunacaq məsələlərin iqlim dəyişiklikləri ilə bağlı risklərin aradan qaldırılmasına töhfə verəcəyinə ümid etdiklərini bildiriblər. Tədbirdə konfransın ABŞ-dən olan həmsədri, Ketterinq Universitetinin professoru Boyan Dmitrovun videomüraciəti yayımlanıb.

Tədbirdə iştirak edən Nobel mükafatı laureatları Sviatoslav Timoşeyev və Yelena Nikitina "Azərbaycan müəllimi" ilə söhbətdə konfrasla bağlı fikirlərini bölüşüblər.

## "COP29 çərçivəsində bütün fəaliyyətlər çox heyranedici şəkildə təşkil olunmuşdu"



Yelena Nikitina

Nobel mükafatı laureatı

- Bugünkü tədbir barədə təəssüratların çox zəngindir. Ən böyük təəssüratım konfransın olduqca çox vacib bir vaxtda təşkil olunması ilə bağlıdır. Bu, ilk növbədə, iqlim dəyişikliklərinin yaratdığı problemlərin xüsusilə aktuallıq kəsb etməsi ilə bağlıdır. Azərbaycanın COP29-a Sədrliyi bir daha onu göstərdi ki, artıq hərəkətə keçməyin vaxtıdır. Artıq diaqnoz qoyulub: İqlim dəyişiklikləri həm təbiətə, həm də insanlara təsir göstərir. Onların bir çox təsirləri isə həm insanlar, həm də iqtisadiyyatın müxtəlif sahələri üçün dağıdıcıdır. Buna görə də artıq mövcud iqlim problemlərinin həlli üzərində çalışmaq vacibdir. Bu isə ən mürəkkəb məsələdir. AzTU rəhbərliyi tədbirə müxtəlif sahələrin mütəxəssislərini toplayıb. Burada elm, təcrübə sahələrinin mütəxəssisləri cəmləşib. Tədbir disiplinar xarakter daşıyır. Bu isə problemin həlli üçün ən vacib başlanğıcdır. Təkcə ölkələrin, xalqların deyil, həm də elmin, eləcə də bu sahədə çalışan ekspertlərin səylərini birləşdirmək lazımdır. Burada həm praktiklər, həm texnoloqlar iqlim dəyişikliklərinin yaratdığı problemlərin həllinə qarşı cavab həllərinin hazırlanması üzrə mütəxəssislər toplaşıb. Onların elmi-tədqiqatları və təcrübələri göstərir ki, bütün biliklərin problemin həllinə yönəldilməsi çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu, sadəcə kiçik deyil, irəliyə doğru böyük addımdır.

Problemin qoyuluşunun vacibliyindən əlavə, mühüm məqam ondan ibarətdir ki, tədbir COP29 Tərəflər Konfransının himayəsi altında keçir. Azərbaycan növbəti il ərzində Paris razılaşması çərçivəsində beynəlxalq iqlim rejimində bu prosesə sədrlik edəcək. Bu da çox vacibdir ki, bugünkü müzakirələrin nəticələri beynəlxalq prosesə töhfədir. COP29 çərçivəsində bütün fəaliyyətlər, işlər çox heyranedici şəkildə təşkil olunmuşdu.

COP29-da çox əhəmiyyətli, Qlobal Şimal və Cənub arasında qarşılıqlı səylərin səfərbər olunması barədə qərar qəbul olunub. Bu qərarlar xüsusən də iqlim böhranının daha çox kəskin forma aldığı regionlar üçün xüsusi əhəmiyyət daşıyır.

İqlim dəyişikliklərinə təhsilin cavab reaksiyasına dair sualınıza gəlincə, deməliyəm ki, əlbəttə ki, təhsilalanlarda iqlim dəyişikliklərinin təsirlərinin qiymətləndirilməsi üzrə maarifləndirmə aparılmalıdır. Bunun da nəticəsində bütün təhsil sistemlərinin iqlim dəyişikliklərinin müasir prosesləri və onların nəticələrinə adekvat cavabı olmalıdır. Təhsil sahəsində texnologiyalar da universitetlərdə hazırlanır. Bu isə universitetlərdə müvafiq ixtisaslaşmanın aparılmasını nəzərdə tutur. Xüsusən də disiplinlərarası sahədə iqlim dəyişiklikləri üzrə böyük verilənlərdən istifadə mühümdür. Yalnız onların əsasında iqlim dəyişiklikləri ilə bağlı səmərəli nəticələrə gətirib çıxara biləcək proqnozlar vermək olar. Eyni zamanda gələcəkdə baş verə biləcək fövqəladə təbiət dəyişikliklərinin qarşısını almaq olar.

Buna görə də məktəblərdə bu sahədə xüsusi kursların tətbiq edilməsi çox vacibdir. Treyninqlər, təcrübi əhəmiyyət daşıyan tədbirlər təşkil olunmalıdır. Bu problemi necə həll etmək, dəyişikliklərlə bağlı risklərin qarşısını necə almaq və ya azaltmaq əsas vəzifələrdir. Biz onsuz da risklərlə yaşamalı olacağıq. Onları ya azaltmalı, ya da qarşısını almalıyıq.

## Məktəblərdə şagirdlərə təbiətin gözəlliklərindən danışmaq azdır...



Siyavoslav Timoşeyev

Nobel mükafatı laureatı

- Bugünkü tədbir COP müstəvisində təşkil olunub. Ancaq biz COP29-da irəli sürülən təklifləri, ideyaları təkrar etmirik. Biz bir daha konkret, siyasi müstəvidə deyil, elmi-texniki, elmi-texnoloji müstəvidə həllər təklif edirik. Biz bu hədəfə yaxınıq ki, bu problemi necə həll edək. Mən bugünkü tədbirdən ruhlanaraq bu konfransın dünya hərəkatına çevrilməsi barədə düşünürəm. Ola bilsin ki, bunu gənclərin elmi hərəkatı kimi etmək olar. Çünki bu problemlər bizim hamımıza aiddir, dünyanın bütün sakinlərinə təsir edir. Buna görə də hər bir insan dəqiq başa düşməlidir ki, onu nələr gözləyir. Biz davamlı inkişafı bir insan üçün, bir hegemon ölkə üçün deyil, dünya sakinləri üçün etməliyik ki, bütün insanlar yaxşı yaşasın. Bundan ötrü çalışmaq lazımdır. Necə işləməli, nə etmək lazımdır? Düşünürəm ki, biz bunu deyə bilərik. Biz hamını əməkdaşlığa çağırırıq ki, gəlin, problemi birlikdə həll edək, inkişafı irəliyə aparaq.

Bu yolda 5 hədəf var. Birincisi, əsas maarifləndirmədir. İkincisi, biz bütün məlumatları toplamalıyıq. Çünki çoxları heç nə etmir. Bəziləri deyir ki, biz bununla məşğul olmayacağıq. Digərləri deyir ki, biz məşğul oluruq, ancaq çox bahalıdır. Bəziləri deyir ki, biz bunu edə bilmirik. Üçüncü, biz prosesə texnologiyalarla kömək etməliyik.

Heydər Əliyev Fondu bu sahədə böyük işlər görüb.

Dördüncüsü, xüsusi elmi-tədqiqatların aparılması ilə bağlıdır. Şübhəsiz ki, bir sıra iri şirkətlər də bizə bu sahədə tədqiqatların aparılmasında lazımi dəstək göstərə bilərlər.

Mən COP29-da qəbul olunmuş qərarı böyük uğur adlandırıram. Azərbaycana dünyanın hər yerindən bu qədər insanın gəlməsi, bu cür əhəmiyyətli qərarın qəbul edilməsi Azərbaycana bütün dünyada yüksək etimadın göstəricisidir. Bu o deməkdir ki, ölkə bütün dünyada nüfuz qazanıb.

Qərarda iqlim böhranının həlli üçün 300 milyard dolların ayrılması Bakı Sədrliyinin ən böyük uğurudur. Bundan əvvəlki konfranslarda belə bir qərarın qəbulu mümkün olmamışdı.

Onu da qeyd edim ki, məktəblərdə təkcə şagirdlərə təbiətin gözəlliklərindən danışmaq azdır, həm də təbiəti qorumağın vacibliyi aşılanmalıdır. Təbiəti çirkləndirmənin neqativ təsirləri izah olunmalı, bu sahədə ciddi maarifləndirmə aparılmalıdır. Böyük problemlərin həllinə aşağı yaşlardan başlamaq lazımdır. Əlbəttə ki, tədris proqramlarında da yeniliklər edilməlidir.

**Oruc MUSTAFAYEV**

Parla

# Bu il 86 gənc "Parla"nın iştirakçısı olacaq

## Təhsilin İnkişafı Fondunun uğurlu proqramı qızların şəxsi və peşəkar inkişafında xüsusi rol oynayır






Yarandığı gündən bir sıra uğurlu layihələr həyata keçirən Təhsilin İnkişafı Fondu (TİF) "Parla" təqaüd və inkişaf proqramı ilə artıq bir çox qızların xəyallarını gerçəkləşdirir, onların şəxsi və peşəkar inkişafında xüsusi rol oynayır.

TİF-in Layihələrin idarə olunması şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə aparıcı məsləhətçisi Nərgiz Qədirova "Azərbaycan müəllimi"nin dövlət-özəl tərəfdaşlığının uğurlu nümunəsi olan bu proqramla bağlı suallarını cavablandırıb.

*- TİF-in "NEQSOL Holding"lə əməkdaşlıq çərçivəsində həyata keçirdiyi "Parla" təqaüd və inkişaf proqramı nə vaxtdan reallaşdırılır? Onun icrası hansı zərurətdən irəli gəlib?*

- TİF yarandığı gündən 50.000-dən yuxarı insanı əhatə etməklə, 40-dan çox layihənin təşkilatçısı və tərəfdaşı olub. Ölkədə təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələrin dəstəklənməsi, təhsil və iqtisadiyyatın inteqrasiyasına və gücləndirilməsinə töhfə vermək, dövlət təhsil müəssisələrinin infrastrukturunun inkişafı ilə bağlı proqramlar həyata keçirmək Fondun əsas fəaliyyət istiqamətləridir. TİF-in ilk layihələrindən biri "Qızların təhsilinə dəstək" təqaüd proqramıdır. Fond sözügedən layihəni Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirir. Sevindirici haldır ki, bu təşəbbüsə özəl sektor nümayəndələri də qoşulub. Onlardan biri də "NEQSOL Holding"dir. Ötən il oktyabrın 4-də TİF ilə "NEQSOL Holding" arasında Əməkdaşlıq Memorandumu imzalanıb, daha sonra dövlət-özəl əməkdaşlığının bariz nümunəsi olan "Parla" təqaüd proqramı elan edilib.

*- Proqramın özəllikləri nədir?*

- "Parla" aztəminatlı ailələrdən olan yüksək akademik göstəricilərə malik tələbə qızlar üçün elan edilmiş təqaüd proqramıdır. Proqram iştirakçılara aylıq təqaüdlə təmin olunma imkanı verməklə yanaşı, təcrübə, mentorluq, təlimlərdə iştirak və "NEQSOL Academy", "LinkedIn Learning", "Enocta" vasitəsilə dünyanın aparıcı universitetlərinin proqramlarına çıxış imkanları yaradır. Bundan əlavə, proqram çərçivəsində qızlar ümumi ingilis dili, IELTS imtahanına hazırlıq üzrə kurslara cəlb edilir, IELTS imtahanını ödənişsiz vermək fürsəti əldə edirlər.

Qeyd edim ki, iştirakçıların şəxsi və peşəkar inkişaflarının artırılması məqsədilə ünsiyyət bacarıqları, karyera inkişafı üzrə təlimlər, xaricdə təhsil haqqında məlumat sessiyası keçirilib. "Norm" ASC-nin istehsalat zavoduna sahə turu təşkil edilib.

*- Bu günədək nə qədər tələbə qız proqramdan bəhrələnib?*

- Birinci qrup üzrə aparılmış qəbula əsasən, 50 qız proqramdan yararlanır. Proqramın ilk elanı 4 oktyabr 2023-cü il tarixində baş tutub. 674 müraciət arasından seçim mərhələlərini uğurla tamamlayan 50 qalib müəyyən edilib. Beləliklə, 2024-cü ilin yanvar ayından 50 qadına 200 manat məbləğində təqaüd verilir. Qaliblərin 5-i şəhid həyat yoldaşdır.

Bu il sentyabrın 3-də "Parla" təqaüd və inkişaf proqramının ilk "Məzun günü" keçirilib, 14 tələbə qız proqramdan məzun olub. Məlumat üçün bildirim ki, həmin tələbələrdən 4-ü "NEQSOL Holding"də və şirkətlərində işlə təmin olunub. 36 qız təqaüd almağa davam edir.

*- Proqramın əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur? Ümumiyyətlə, proqrama qəbul necə həyata keçirilir?*

- TİF və "NEQSOL Holding" arasındakı əməkdaşlığa əsasən, Azərbaycanda hər il 50 tələbə qız üçün "Parla" proqramı həyata keçirilir. Beləliklə, hər il 50 tələbə qızın bu proqramdan faydalanması nəzərdə tutulur.

Bir müddət əvvəl ikinci "Parla" proqramına qəbul yekunlaşdı və müsahibə mərhələsinə dəvət olunacaq tələbə qızların adları açıqlandı. Bu il proqrama 791 nəfər müraciət edib. Seçim şərtlərinə cavab verən 128 namizəd müsahibə mərhələsinə vəsiqə qazanıb. Növbəti həftədən etibarən iştirakçılar mərhələli şəkildə müsahibələrə dəvət ediləcəklər. Bu il ümumilikdə 86 gənc proqramın iştirakçısı olacaq.

Hər iki qurum proqramın uzunmüddətli olmasını arzu edir, layihə çərçivəsində tələbə qızların sayını artırmağı hədəfləyir.

*- "Parla" qızlarımıza nələr vəd edir?*

- "Parla" tələbə qızlara təkcə maddi dəstək deyil, həm də onların həyatında mühüm dönüş yarada biləcək fürsətlər təqdim edir. Burada qızlar yalnız təqaüd almaqla kifayətlənmir, eyni zamanda təhsil və bacarıqlarını artırmaq üçün müxtəlif kurslara, təlimlərə və proqramlara cəlb olunurlar. İngilis dili kursları, IELTS imtahanına hazırlıq və pulsuz imtahan imkanı onların qlobal arenada özlərini təsdiq etməsinə yol açır. "Parla"dan məzun olanlar artıq öz məzunlar assosiasiyasını quraraq bir-birilərinə dəstək verirlər.

"Parla" hər bir iştirakçıya yalnız dəstək deyil, gələcəkdə daha güclü, özünəinamlı və cəmiyyətdə aktiv rol oynayan bir şəxs olmaq üçün unikal şans verir. Bu proqram öz potensialını reallaşdırmaq istəyən hər bir tələbə qız üçün yeni bir üfüq açır.

**Samirə KƏRİMOVA**

## Dövlət Proqramı təqaüdçüləri

# Xaricdə təhsil əvəzolunmaz bir imkandır

Aydan Poladova:

## "Azərbaycanda daha güclü, dayanıqlı və səmərəli səhiyyə sisteminin qurulmasına töhfə vermək əsas məqsədlərimdəndir"



**Son illərdə gənclərimizin xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almaları, akademik uğurlarla yanaşı, ictimai-sosial işlərdə də fəallıq göstərmələri diqqətçəkici məqamlardandır.**

**Xaricdə təhsil arzularını reallaşdıran gənclərdən biri də "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "Imperial College London" ali təhsil müəssisəsində "İctimai səhiyyə" ixtisası üzrə magistratura səviyyəsində təhsil alan Aydan Poladovadır.**

**Tanıtım. 6 sentyabr 2000-ci ildə Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2006-2017-ci illərdə Sumqayıt şəhər İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbdə alıb, həmin məktəbi fərqlənmə attestatı ilə bitirib. Təhsil müddətində müxtəlif fənlər (riyaziyyat, biologiya, Azərbaycan dili) üzrə olimpiadalarda və "Sabahın alimləri" respublika müsabiqəsində uğurla iştirak edib. 2015-ci ildə biologiya fənni üzrə Respublika fənn olimpiadalarında bürünc medala layiq görülüb. 2017-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanında 668 bal toplayaraq təhsil aldığı orta məktəbin ən yüksək nəticə göstərən abituriyenti olub.**

**Bakalavr təhsilini Azərbaycan Tibb Universitetinin "Müalicə işi" (Tibb fakültəsi) fakültəsində dövlət sifarişi əsasında alıb. Universiteti 2023-cü ildə qırmızı diplomla bitirib.**

**Əldə etdiyi uğurlar peşəkar inkişafında və məqsədlərinə çatmaqda böyük rol oynayıb. Həmçinin "SOCAR Midstream" tərəfindən maliyyələşdirilən tərcümə layihəsində çalışaraq, psixofarmakologiya sahəsində "Stahl's Essential Psychopharmacology" dərsliyinin ana dilimizə tərcümə olunmasında yaxından iştirak edib. Bu, ona liderlik və komanda işində təcrübə qazandırıb.**

**Bu yaxınlarda isə Aydan Poladova "Imperial College London"'da tələbə cəmiyyəti üzvlərinin "Mental Health" təmsilçiliyinin nümayəndəsi seçilib.**

**"Azərbaycan müəllimi" olaraq Dövlət Proqramı təqaüdçüsü ilə müsahibəmizə elə bu yeniliklə körpü salırıq.**

### Avropada nüfuzlu universitetin tələbə cəmiyyətinin azərbaycanlı nümayəndəsi

*- London İmperial Kollecində tələbə cəmiyyəti üzvlərinin nümayəndəsi seçildiniz. Bu proses necə keçdi? Tələbə cəmiyyəti üzvlərinin nümayəndəsi kimi hansı işləri görəcəksiniz?*

- London İmperial Kollecində tələbə cəmiyyətinin nümayəndəsi olmaq üçün müəyyən seçim meyarları mövcuddur. İlk əvvəl, tələbə birliyinə üzv olmaq istəyən şəxslər namizədliklərini irəli sürürlər. Bunun üçün "manifesto" yazmaq tələb olunur, özünüzü təqdim edib, hədəfləriniz və namizədliyinizi irəli sürdüyünüz sahə üzrə planlarınızı qeyd edirsiniz. Daha sonra səsvermə əsasında qaliblər müəyyən olunur və yekunda, hər bir nominasiya üzrə qaliblərin siyahısı paylaşılır.

Seçilmiş olduğum nominasiya psixi sağlamlıq üzrədir. Biz tələbələrin psixi sağlamlığı və rifahı üçün maarifləndirmə təşəbbüslərinin planlaşdırılması və əlaqələndirilməsi ilə məşğul oluruq. Bu sahədə, əsas məqsədimiz müxtəlif kampaniyalar və tədbirlər təşkil edərək tələbələrə qarşılaşdıqları çətinliklərdə köməklik göstərmək, imtahanlar zamanı yaranan stres vəziyyəti ilə mübarizə aparmaq üçün yollar təklif etmək, eləcə də digər səbəblərdən (ailədən uzaq olmaq, fərqli mühitə adaptasiya ola bilməmək, dil çətinlikləri və s.) yaranan narahatlıq hallarının qarşısını almaq üçün dəstək olmaqdır. Hazırda bu istiqamətdə məlumatlandırıcı tədbir təşkil etməyi planlaşdırırıq.

*- Xaricdə təhsil üçün London İmperial Kollecini seçmisiniz. Bu ali məktəb hansı üstünlükləri ilə sizi cəlb etdi?*

- Təhsilimi xaricdə davam etdirməyi planlaşdırdığım zaman, ilk növbədə, Böyük Britaniya universitetlərinə müraciət etməyi qərarlaşdırmışdım. Ötən il lazımi proseslərdən keçdikdən sonra Böyük Britaniyanın bir neçə universitetindən qəbul aldım (Imperial College London, University of Bristol, University of Edinburgh, University of Sheffield, University of Nottingham). Yekun qərarım İmperial Kollecində təhsil almaq oldu, bunun səbəblərindən biri son bir neçə ildir ki, universitetlərin reytinq cədvəlində getdikcə irəliləməsi və 2025 QS reytinq cədvəlində dünya üzrə 2-ci, Avropa üzrə isə 1-ci yerdə olmasıdır. Həmçinin İmperial Kolleci tibb sahəsində olduqca qabaqcıl universitetlərdən biridir, tibbi tədqiqat və innovasiyalar üzrə aparıcı rola malikdir, belə ki, National Institute for Health Research (Milli Səhiyyə Tədqiqatları İnstitutu) və digər böyük qurumlarla əməkdaşlıq edir, bu isə onu tibb elminin inkişafında liderlərdən birinə çevirir.

### "Müəllimlər tələbələrin fərdi ehtiyaclarına diqqətlə yanaşır"

*- London İmperial Kollecində tələbə-müəllim münasibətləri necədir?*

- Müəllimlərin peşəkar və eyni zamanda səmimi münasibətləri, tələbələrə həm akademik, həm də şəxsi inkişaf baxımından dəstəkləyici bir atmosfer yaradır. Burada müəllimlər tələbələrin fərdi ehtiyaclarına diqqətlə yanaşır və onlara dəstək vermək və tədris prosesində yarana biləcək sualları cavablandırmaq üçün ofis saatları və görüşlər təşkil edirlər. Həmçinin tələbələrə akademik karyera, təcrübə proqramları, tədqiqat imkanları və gələcək peşə həyatı ilə bağlı da dəstək verirlər. İmperial Kollecində müəllimlər müntəzəm olaraq tədrisin keyfiyyətini artırmaq və tələbələrin ehtiyaclarına uyğun dəyişikliklər etmək məqsədilə müzakirələr aparırlar.

### "Hər bir ölkə üçün ictimai səhiyyənin rolu olduqca vacibdir, çünki sağlam əhali inkişaf etmiş cəmiyyətlərin əsasını təşkil edir"

*- Hazırda hansı ixtisas üzrə təhsil alır və tədqiqatlar aparırsınız? İctimai səhiyyə sizin üçün nə dərəcədə maraqlı sahədir? İctimai səhiyyə qarşısında nə kimi vəzifələr durur?*

- Təhsilimi İctimai səhiyyənin Sağlamlığın Təşviqi və Səhiyyədə Keyfiyyətin Təkmilləşdirilməsi istiqaməti üzrə davam etdirirəm. Hazırda apardığım araşdırma "Qadınlarda doğuşdan sonra psixi sağlamlığın yaxşılaşdırılması üçün innovasiyalar" mövzusundadır.

Bakalavr təhsilimi tibb üzrə aldıqdan sonra həkim kimi fəaliyyət göstərməyə başlamazdan əvvəl, daha çox insana fayda verə bilmək üçün ictimai səhiyyə üzrə ixtisaslaşmalı olduğumu düşündüm. Hər bir ölkə üçün ictimai səhiyyənin rolu olduqca vacibdir, çünki sağlam əhali daha güclü iqtisadiyyata malik, inkişaf etmiş cəmiyyətlərin əsasını təşkil edir.

İctimai səhiyyənin qarşısında duran vəzifələr, həm qlobal, həm də yerli miqyasda mürəkkəb və çoxşaxəlidir. Səhiyyədə bərabərsizliyin aradan qaldırılması, pandemiyalara hazırlıq, iqlim dəyişikliyi və ətraf mühitin təsiri, psixi sağlamlıq, səhiyyə sistemlərinin effektivliyinin artırılması ictimai səhiyyənin gələcəyini formalaşdıran əsas aspektlərdir.




### "Azərbaycanda daha güclü, dayanıqlı və səmərəli səhiyyə sisteminin qurulmasına töhfə vermək əsas məqsədlərimdəndir"

*- Biz pandemiya dövründə ictimai səhiyyənin əhəmiyyətini daha çox hiss etdik. Bu sahəyə artan maraq nə ilə bağlıdır? Tədqiqatlarınız Azərbaycana nə verəcək?*

- COVID19 pandemiyası ictimai səhiyyənin əhəmiyyətini bir çox cəhətdən vurğuladı və nəticədə, bu sahəyə olan marağı daha da artırdı. Pandemiya dövründə məlum oldu ki, infeksion xəstəliklərin geniş vüsət alması həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr üçün ciddi təhlükə yaradır. İctimai səhiyyə belə infeksiyaların yayılmasını nəzarət altına almaq, qorunma tədbirlərini işləyib hazırlamaq və sağlamlıq sistemlərini möhkəmləndirmək üçün həyati əhəmiyyət kəsb edir.

Tədqiqatlarımın Azərbaycana verəcəyi töhfələr, ölkənin ictimai səhiyyə sistemini gücləndirmək, sağlamlıq xidmətlərinə bərabər çıxışı təmin etmək, infeksion xəstəliklərlə mübarizə aparmaq istiqamətində olacaq. Pandemiya kimi qlobal problemlərdən sonra Azərbaycanda daha güclü, dayanıqlı və səmərəli səhiyyə sisteminin qurulmasına töhfə vermək əsas məqsədlərimdəndir. Həmçinin burada öyrəndiyim biliklərlə, digər ölkələrin uğurlu ictimai səhiyyə proqramları və siyasətlərinin ölkəmizdə tətbiq edilməsinə dəstək olmağa çalışacağam.

### Dövlət Proqramı ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına kömək edir

*- Xaricdə təhsil dövlət proqramlarının əhəmiyyəti barədə nə deyərdiniz?*

- Dövlət Proqramları ilə xaricdə təhsil, həm tələbələrin, həm də ölkənin ümumi inkişafı üçün geniş perspektivlər açır. Dövlət Proqramı təqaüdçüsü olaraq, deyə bilərəm ki, bu proqram xaricdə təhsil almaq istəyən gənclər üçün əvəzolunmaz bir imkandır. Mən və mənim timsalımda hər il yüzlərlə Azərbaycan gənci Dövlət Təqaüd Proqramı hesabına xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq xəyalını gerçəkləşdirir. Xaricdə təhsili maliyyələşdirən Dövlət Proqramı ölkəmizin gələcəyi üçün yüksəkixtisaslı kadrların yetişdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından əvəzsiz rol oynayır. Həmçinin xaricdə təhsil almış gənclərin uğurları ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına kömək edir.

*- Konkret olaraq 2022-2028-ci illər üzrə Dövlət Proqramı sizə nə verdi? Hansı təcrübə və səriştələri qazandırdı?*

- 2022-2028-ci illər üzrə Dövlət Proqramının qalibi olaraq Londonda yaşamaq və dünyanın ən qabaqcıl universitetlərindən birində təhsil almaq imkanı əldə etdim. Dövlət Proqramı mənə həm təhsil, həm də peşəkar inkişaf və beynəlxalq təcrübə qazandıran bir yol oldu. Bütün bunlar mənə şəxsi inkişaf və təhsilimdə irəli getməklə yanaşı, dünyanın bir sıra ölkələrindən yeni insanlarla tanış olmaq, dostluqlar qurmaq şansı yaratdı. Müxtəlif ölkələrdən olan tələbələrlə birgə çalışaraq, multikultural mühitdə fəaliyyət göstərmək bacarığı əldə etdim.

İmperial Kollecində təhsil almaqla, elmi-tədqiqatlarla yaxından tanış olmaq, analitik düşünmə bacarıqlarımı inkişaf etdirmək imkanı əldə etdim. Bu təcrübə mənə tibb sahəsində innovasiyalar və müasir elmi metodlar haqqında dəyərli məlumatlar qazandırıb və qazandırmağa davam edir.

### ""Komfort" zonasından kənara çıxmaq uğurun başlanğıcıdır"

*- Xaricdə təhsil almaq istəyən gənclərə nə kimi tövsiyələr verərdiniz?*

- Şəxsi təcrübəmə əsasən deyə bilərəm ki, xaricdə təhsil almağı planlaşdıran hər bir gənc öncə bu sahədə müəyyən araşdırmalar aparmalıdır. Nəzərə alsınlar ki, hər bir universitetin təhsil sahələri, mühitləri və tədris metodları fərqlidir. İdeal universiteti seçmək üçün öncə seçdikləri proqram və universitetin gələcək karyera hədəfləri ilə nə dərəcədə əlaqəli olduğunu düşünməlidirlər. Dil bacarıqlarını inkişaf etdirsinlər, bu, həm akademik, həm də sosial əlaqələrdə vacib rol oynayır. Mənə görə ən vacibi isə, özünü psixi cəhətdən hazırlamaqdır. Çünki yeni bir mədəniyyətə uyğunlaşmaq, ailədən uzaq olmaq və təhsil sisteminə alışmaq müəyyən qədər stresə səbəb ola bilir. Ancaq unutmasınlar ki, "komfort" zonasından kənara çıxmaq uğurun başlanğıcıdır.

*- Gələcək hədəfləriniz barədə nə deyərdiniz?*

- Gələcək hədəflərimdən biri, ictimai səhiyyə mütəxəssisi və həkim olaraq, sağlamlıq siyasəti, səhiyyədə keyfiyyətin yaxşılaşdırılması və elmi araşdırma sahələrində fəaliyyət göstərməkdir. İctimai səhiyyə və tibb təhsili sahəsindəki təcrübələrimi birləşdirərək, həm individual xəstələrin müalicəsi, həm də əhalinin rifah səviyyəsini artırmaq üçün çalışmağı planlaşdırıram. Həmçinin, bu sahədə tələbələrə praktik biliklər öyrətmək və elmi-tədqiqat metodologiyası haqqında tədris aparmaq, akademik tədqiqatlar apararaq, bu tədqiqatları yenilikçi tədris proqramları şəklində tədris prosesinə tətbiq etmək kimi hədəflərim mövcuddur.

**Oruc MUSTAFAYEV**

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedrada vakant vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| ss | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Teatrşünaslıq kafedrası | Kafedra müdiri | 1 |
| 2. | Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası | Professor | 1 |
| 3. | Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası | Dosent | 1 |

Müsabiqədə kafedraların profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**



## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 35438 **Sifariş** 2786
**Məsul növbətçi:** O.Mustafayev


# “PRAKTİK RİYAZİYYAT”

**“Müəllim” nəşriyyatı tərəfindən Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru Vaqif Mahmudov, Əməkdar müəllim Qalib Başirov, Sevinc Məmmədəliyeva, Xəqani Vahabov və Həsən Mahmudovun müəllifliyi ilə “Praktik riyaziyyat” adlı səkkiz bölmədən ibarət müəllim, tələbə və şagirdlər üçün nəzərdə tutulmuş 368 səhifəlik yeni metodik vəsait nəşr olunub.**




Vəsaitdə istehsalat və məişət məzmunlu tarixi, əyləncəli və situasiya məsələləri, onların həlləri və cavabları, o cümlədən orta məktəbin bütün sinifləri üzrə riyaziyyat kursunda tətbiq olunan bir sıra maraqlı məlumatlar, kombinatorika elementləri, müxtəlif həndəsi qurmalar, say sistemləri, həmçinin hesablama riyaziyyatı, proqramlaşdırma dilləri və tam orta məktəblərin informatika kursunda tədris olunan Python proqramlaşdırma dili haqqında da dəyərli məlumat verilib. Vəsaitin son bölməsində maraqlı və məntiqi testlər, onların cavabları yerləşdirilib.

Şagirdlərin riyazi biliyinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə, hər şeydən əvvəl, fənnin tədrisi yollarını müəyyənləşdirmək və mövzudan asılı olaraq rəngarəng vasitələrdən istifadə etmək lazım gəlir. Məktəbdə şagirdlərin riyazi qabiliyyətlərinin inkişafında digər pedaqoji tədbirlərlə yanaşı, riyaziyyat dərnəkləri də mühüm rol oynayır.

Bu məqsədlə kitabdan riyaziyyat dərnəklərinin işinin daha da yaxşılaşdırılması məqsədi üçün də istifadə edilə bilər.

Metodik vəsait ibtidai sinif, riyaziyyat və informatika müəllimlərinə, riyaziyyata xüsusi həvəs göstərən şagirdlərə, həmçinin müstəqil məsələ həll etmək bacarığına yiyələnmək istəyənlərə köməklik məqsədi ilə hazırlanıb. Kitabdan tam orta, pedaqoji, digər ali və orta ixtisas məktəblərinin, liseylərin, gimnaziyaların, kolleclərin, universitetlərin şagird, tələbə və müəllimləri də istifadə edə bilər.



# Etibarsız sayılır



**Bakı şəhər** 196 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Fərəcova Rəna Arif qızına verilmiş E-567872 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Əli Arif oğluna verilmiş A-301503 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** R.Babayev adına 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əliyev David Zakir oğluna verilmiş A-508556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** Boradigah qəsəbə 1 nömrəli tam orta məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Paşayeva Ulduz Hidayət qızına verilmiş 167816 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Mustafayeva Arzu Nazim qızına verilmiş A-373540 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2024-cü ildə Babaşov İbrahim Vəli oğluna verilmiş C-225794 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Xındırıstan kənd tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Zülfalıyev Müşfiq Süleyman oğluna verilmiş 133313 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Gənzə kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədova (Həsənova) Tərgül Cəbrayıl qızına verilmiş A-183292 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**DİN-nin Polis Akademiyasının nəzdindəki orta xüsusi polis məktəbi** tərəfindən 1995-ci ildə Rəsulov Zöhrab Yusif oğluna verilmiş 010801 nömrəli diplom əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Əhmədli kənd ümumi orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Nəsirova (Abuşova) Zeynəb (Qızqayıd) Əliş qızına verilmiş B-456249 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Abbasova Gülşən Elşən qızına verilmiş A-194721 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 128 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Kərimova (Eyvazova) Zəhra Zöhrab qızına verilmiş A-151496 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Turizm və Menecment Universiteti** tərəfindən 2021-ci ildə Əliyev Rusif Yusif oğluna verilmiş C-112002 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2023-cü ildə Əliyev Rusif Yusif oğluna verilmiş AM-050864 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Humanitar Kolleci** tərəfindən 2020-ci ildə Hüseynova Günel Yusif qızına verilmiş AA-131900 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 103 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Şəfiyev Cavidan Ceyhun oğluna verilmiş C-350536 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məlikov Səyyar Kamran oğluna verilmiş A-135934 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2010-cu ildə Çubko Pyotr Aleksandroviçə verilmiş BB-II-106111 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Qafarova (Zeynalova) Sitarə Əfqan qızına verilmiş A-511820 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədova Təranə Vahid qızına verilmiş A-570364 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.B.Qasımov adına Tovuz-Savxoz Texnikumu** tərəfindən 1990-cı ildə Bayramov Yelman Lətif oğluna verilmiş HT-I-574428 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 270 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəsirov Ruslan Saleh oğluna verilmiş B-277710 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qəriblər kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva (Səmədova) Aygün Mükafat qızına verilmiş A-712176 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Fərəcov İsmayıl Ramin oğluna verilmiş C-636106 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hacıyeva Hənifə Bəhruz qızına verilmiş 146579 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Osaküçə kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş Şıxcanov Əziz Paşa oğluna verilmiş 827911 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Eyvazalılar kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Qəhrəmanov Sirac Saməddin oğluna verilmiş 536806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Qaçaq Kərəm kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Hüseynli İlkin Vüqar oğluna verilmiş E-051873 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**287 nömrəli “Zəkalar” liseyini** 2003-cü ildə bitirmiş Mövsümov Əli Zakir oğluna verilmiş A-651228 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Mustafayeva İlahə Əli qızına verilmiş Ə-0804 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə (attestat) itdiyi üçün etibarsız sayılır.

**Culfa şəhər** 2 nömrəli tam orta məktəbin (Culfa şəhər 38 nömrəli dəmiryol məktəbi) IX sinfini 2001-ci ildə bitirmiş Abbasova Təhminə Kamil qızına verilmiş 061612 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əhmədova (Məmmədova) Samirə Fikrət qızına verilmiş B-217806 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb-Lisey Kompleksini** 2010-cu ildə bitirmiş Mikayılov Rüfət İsrafil oğluna verilmiş B-674272 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Topalhəsənli kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Abdullayev Təbiət Məhəmmədəli oğluna verilmiş B-110540 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Sor-sor kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Məmmədova Ramilə Maarif qızına verilmiş B-360845 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Yenikənd kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Şahverdiyev Şöhrət Vidadi oğluna verilmiş A-266492 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Ələsgərli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyev Ramil Eldəniz oğluna verilmiş B-293158 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Əliyeva Afət Ədalət qızına verilmiş A-266355 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Düdəngə kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş İbrahimov Namiq Rafiq oğluna verilmiş A-504819 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 5 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Nağıyeva (Həsənova) Kamilə Xanışəli qızına verilmiş B-391202 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Hüseynova (Yarıyeva) Zümrüd Ərəstun qızına verilmiş 508597 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Cəfərova (Mənsimova) Bahar Salman qızına verilmiş A-104565 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Seyidov Tofiq Həsən oğluna verilmiş E-268239 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 134 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Süleymanova Samirə Süleyman qızına verilmiş B-303375 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** N.Süleymanov adına Çinarlı qəsəbə tam orta məktəbi 1993-cü ildə bitirmiş Səttarova (Teymurova) Vüsalə Eyyub qızına verilmiş A-112573 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədli Sərxan İlham oğluna verilmiş A-020150 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş İbrahimova Gülnar Hacıbala qızına verilmiş B-357836 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikası Həkimləri Təkmilləşdirmə İnstitutunda** “Nevrologiya” ixtisası üzrə ixtisaslaşma kursu keçməsi barədə Rəşidova Kəmalə Kamil qızına 1998-ci ildə verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2012-ci ildə Mirzəyeva Nigar Elçin qızına verilmiş BB-I-020185 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2023-cü ildə Qafarlı Toğrul Nazim oğluna verilmiş C-217299 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 251 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Maqsudov Araz Nadirşah oğluna verilmiş B-679131 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** N.Nərimanov adına tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Şükürov Hüseyn İsmayıl oğluna verilmiş C-406246 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə Cəfərova Səadət Aslan qızına verilmiş A-103018 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Balakən şəhər** Nizami adına 1 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Bayramlı Humay Aslan qızına verilmiş A-915359 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri kənd tam orta 1 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Ruşanov Asif Hidayət oğluna 1991-ci ildə verilmiş A-664324 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.